RƏSMİ DÖVLƏT QƏZETİ



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 9 (8602) CÜMƏ, 15 yanvar 2021-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



# Azərbaycan regionda dayanıqlı sülhün və əməkdaşlığın tərəfdarıdır

Azərbaycan Prezidenti İlham Əliyev, Ermənistanın baş naziri Nikol Paşinyan və Rusiya Prezidenti Vladimir Putinin cari ayın 11-də Moskvada keçirilmiş görüşünün yekunları hələ də sözügedən ölkələrin ictimaiyyətinin diqqət mərkəzindədir. Rusiya paytaxtında dörd saat davam etmiş üçtərəfli danışıqlar zamanı tərəflər regionda ab-havanı tamamilə dəyişdirməyə imkan verən razılaşmalara nail olmuşlar.

**Prezident İlham ƏLİYEV: “Dağlıq Qarabağ münaqişəsi keçmişdə qalıb və biz gələcək barədə, qonşular kimi birlikdə necə yaşamaq, nəqliyyat arteriyalarının açılması məsələlərini həll etməyə necə çalışmaq və gələcəkdə regional sabitliyi və təhlükəsizliyi möhkəmlətmək haqqında düşünməliyik”**

Keçən il noyabrın 10-da münaqişə zonasında hərbi əməliyyatlar dayandırıldıqdan sonra silahlı qarşıdurmanın tərəfləri arasında qarşılıqlı münasibətləri qaydaya salmaq zərurəti ortaya çıxmışdı. O vaxt üç ölkənin rəhbərlərinin qəbul etdikləri müştərək bəyanat çərçivəsində əldə olunmuş razılaşmaların əksər hissəsi reallaşdırılmışdır. Lakin bir sıra mühüm məsələləri həll etmək üçün yeni addımlar atmaq lazım idi. Moska görüşünün keçirilməsi məhz bu zərurətdən irəli gəlirdi.

Məlum olduğu kimi, 11 yanvar görüşünün yekunu kimi imzalanmış bəyanat 10 noyabr üçtərəfli bəyanatının 9-cu bəndinin bir hissəsini, daha doğrusu, postmüharibə dövründə regionda iqtisadiyyat və nəqliyyat əlaqələrinin bərpası ilə bağlı tədbirlərin reallaşdırılması məsələlərini özündə ehtiva edir. Yeni bəyanata uyğun olaraq, Azərbaycan, Ermənistan və Rusiya baş nazirləri müavinlərinin həmsədrliyi ilə üçtərəfli işçi qrupunun yaradılması qərara alınmışdır. İşçi qrupunun həmsədrləri bu istiqamətlər üzrə üç tərəfin səlahiyyətli hakimiyyət orqanları və təşkilatlarının vəzifəli şəxslərindən ibarət ekspert yarımqruplarının tərkibini təsdiq edəcəklər.

Ardı 4-cü səh.

## “Amnesty International” Ermənistanın dinc əhaliyə qarşı raket hücumları ilə bağlı yeni hesabat yayıb

“Amnesty International” təşkilatı 44 günlük müharibə zamanı Ermənistanın qadağan olunmuş silahlardan istifadə etməsi nəticəsində mülki şəxslərin qətlə yetirilməsinə dair yeni hesabat yayıb.

AZƏRTAC xəbər verir ki, hesabatda Ermənistan silahlı qüvvələri tərəfindən qeyri-dəqiq ballistik raketlərdən, idarəolunmayan çoxsaylı raket sistemlərindən və artilleriya silahlarından istifadə edildiyi bildirilir. Hərbi əməliyyatların dayandırılmasına dair 2020-ci il 10 noyabr tarixli üçtərəfli bəyanatın imzalanmasından sonra “Amnesty International”ın ekspertlərinin raket zərbələrinə məruz qalmış bir sıra ərazilərə səfər etdikləri qeyd olunur. Bildirilir ki, həmin ekspertlər vəzifəli şəxslərlə, raket zərbələrindən sağ qalmış insanlarla və həlak olmuş mülki şəxslərin yaxınları ilə görüşüblər. Təşkilatın böhran qrupu raket qalıqlarını təhlil edərək müharibə zamanı çəkilmiş videoları, fotoları və peyk şəkillərini də araşdırıblar.

Diqqətə çatdırılır ki, “Amnesty International” Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycanın şəhər və kəndlərinə mülki vətəndaşların həlak olması ilə nəticələnən səkkiz raket zərbəsinin endirilməsini sənədləşdirib.

Qeyd edilir ki, Ermənistan silahlı qüvvələrinin oktyabrın 17-də Gəncə şəhərindəki Muxtar Hacıyev küçəsinə endirdiyi “SCUD-B” ballistik raketinin zərbəsi nəticəsində 21 mülki şəxs qətlə yetirilib və 50-dən çox insan yaralanıb. Bu hücum zamanı Südabə Əsgərova adlı şəxsin 15 yaşlı qızı Nigar doğum günündən bir gün əvvəl həlak olub. “O, mənim yeganə övladım idi”, - deyə Südabə Əsgərova “Amnesty International” təşkilatına bildirib.

64 yaşlı Ramiz Qəhrəmanov isə bildirib ki, raket hücumu zamanı onun 34 yaşlı qızı Xatirə, 11 yaşlı nəvəsi Orxan, 6 yaşlı nəvəsi Məryəm və 18 yaşlı nəvəsi Ləman həlak olub.

Hesabatda qeyd edilir ki, Ermənistan silahlı qüvvələri tərəfindən oktyabrın 27-də Bərdə rayonunun Qarayusifli kəndinin müxtəlif istiqamətlərdən kasetli raketlərlə atəşə tutulması nəticəsində evlərə böyük ziyan dəyib və həmin vaxt 5 mülki şəxs qətlə yetirilib, 14 nəfər yaralanıb. Ölənlər arasında həmin vaxt həyətdə oynayan 7 yaşlı Aysu İsgəndərova da olub.

Bildirilir ki, Ermənistan silahlı qüvvələri oktyabrın 28-də cəbhədən 20 kilometrdən çox məsafədə yerləşən Bərdə şəhərini bir neçə iriçaplı raketlərlə atəşə tutub. Atılan raketlərdən üçü şəhərin mərkəzinə, ikisi iki xəstəxananın yaxınlığına düşüb. Üçüncü raket - 72 ədəd qəlpəli təyinatlı 9N235 bombacıqlarından ibarət Rusiya istehsalı olan 9M55 “Smerch” raketinin şəhər əhalisinin sıx yaşadığı yerə düşməsi nəticəsində 21 mülki şəxs həlak olub.

Həmçinin diqqətə çatdırılır ki, münaqişə başladığı gün - sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin Naftalan yaxınlığındakı Qaşaltı kəndinə artilleriya zərbəsi endirməsi nəticəsində Qurbanovlar ailəsinin 5 üzvü həlak olub və yaşadıqları ev dağılıb.

## Böyük qayıdış yollardan başlayır

### İşğaldan azad edilmiş ərazilərdə digər infrastruktur layihələri də icra olunur

2020-ci ilin yekunlarına həsr olunan müşavirənin başlıca mövzularından biri məcburi köçkünlərin öz yurd-yuvalarına böyük qayıdışı oldu. Müşavirədə Prezident İlham Əliyev bildirdi ki, əsas diqqət azad edilmiş torpaqlar olmalıdır və ardınca da qeyd etdi ki, orada ilkin infrastruktur layihələrinin icrasına artıq başlanıb.

Təbii ki, işğaldan azad edilmiş torpaqları dirçəltmək üçün ilk növbədə yollar çəkilməli və paralel olaraq digər zəruri infrastruktur yaradılmalıdır. Hazırda bu istiqamətdə Əhmədbəyli-Alxanlı-Füzuli-Şuşa yolu inşa olunur. Yolun qrafikdə nəzərdə tutulan vaxtdan tez istifadəyə verilməsi planlaşdırılır. Digər önəmli layihə isə Toğanalı-Kəlbəcər yoludur. Qeyd edək ki, keçdiyi ərazinin relyefi çətin olduğundan bu yolun tikintisi asan deyil. 3500 metr hündürlükdə yerləşən yolun qış aylarında tikintisi daha çətindir. Buna baxmayaraq, layihənin icrası ləngimir. Onu da bildirək ki, bu magistral yolun çəkilişi dağların altından tunellərin tikintisini də tələb edir.

Bununla yanaşı, Horadizdən Zəngilana, oradan Qubadlıya və sonra Laçına qədər yolun çəkilişi işlərinə də hazırlıq görülür. Qeyd edək ki, Toğanalıdan Kəlbəcərə çəkiləcək yol da Laçın rayonuna qədər davam etdiriləcək. Beləliklə, hər iki tərəfdən Kəlbəcər, Laçın, Qubadlı, Zəngilan, Şuşa, Füzuli, Cəbrayıl rayonlarına rahat şəkildə gedə biləcəyik.

İşğaldan azad olunmuş ərazilərdə təkcə avtomobil yollarının çəkilişi həyata keçirilməyəcək. Bu ərazilərdə hava nəqliyyatının da yaradılması nəzərdə tutulur.

Ardı 4-cü səh.

## Vətəndaşların sağlamlığı prioritetdir

Yeni növ koronavirus pandemiyası bəşəriyyəti təhdid etməkdə davam edir. Xeyli vaxtdır əksər ölkələrdə sərt karantin məhdudiyyətləri tətbiq olunsa da, hələ ki bu tədbirlər xəstəliyin qarşısını almaqda təsirli olmayıb. Virus hər gün daha çox insana yoluxmaqda davam edir.

Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) gündəlik hesabatında məlumat verilir ki, dünyada koronavirusa yoluxanların sayı son sutka ərzində 347 mindən çox artıb. Təsdiqlənmiş yoluxma hadisələrinin əksəriyyəti isə ABŞ-da qeydə alınıb. Siyahıda sonrakı yerləri Hindistan, Braziliya, Rusiya, Böyük Britaniya, Fransa, İtaliya, İspaniya, Almaniya, Kolumbiya, Argentina və Meksika bölüşür.

Onu da qeyd edək ki, ÜST-ün ekspertlər qrupu COVID-19 infeksiyasının mənşəyinin tapılması istiqamətində araşdırmalar aparmaq üçün Çinə yollanıb. On nəfərdən ibarət heyətin diqqət mərkəzində epidemiyanın ilk olaraq başladığı Hubey vilayətinin paytaxtı Uhan şəhəridir. Ekspertlər rəylərini öz müşahidələrinə, eləcə də Çin mütəxəssisləri tərəfindən heyvan və insanlardan toplanmış nümunələrə əsasən verəcəklər.

Dünyada sürətlə vaksinasiya prosesi gedir. Amma ÜST ekspertləri hesab edirlər ki, peyvəndləmə işlərinin aparılması ilə əlaqədar nə rahatlaşmaq, nə də təlaşa düşmək olar. Odur ki, məlum olan təhlükəsizlik tədbirlərinə səbrlə və ciddi şəkildə riayət etmək lazımdır. Ətrafdakılardan mümkün qədər uzaq durmaq, otaqları yaxşı havalandırmaq, maska taxmaq, tez-tez əlləri yumaq və öskürərkən dirsəyin iç tərəfi ilə ağzı örtmək vacibdir.

### Tezliklə vaksinasiya başlayacaq

Ölkəmizdə də peyvəndləmə prosesinə hazırlıq işləri görülür və ən yaxın vaxtlarda prosesə start veriləcək. Vaksinlərin alınıb gətirilməsi ilə əlaqədar aparılan bütün danışıqlar müsbət nəticələnib və yanvarın axırlarına 4 milyon doza vaksinin respublikamıza gətiriləcəyi gözlənilir. Əhalinin vaksinasiyasının fevraldan gec olmayaraq başlanılacağı nəzərdə tutulub.

Azərbaycanda aparılacaq vaksinasiyanın təşkili və əlavə təsirlərinin idarə edilməsi ilə əlaqədar Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi (TƏBİB) tərəfindən təlimlər keçirilir. Ölkəmizdə vaksinasiyanın aparılacağı 150 məntəqədə xəstənin qeydiyyatı, şikayətlərin qəbulu, qızdırmanın ölçülməsi, kompüterdə və jurnalda qeydiyyatın aparılma qaydası barədə məlumat veriləcək.

Bütün dünyada olduğu kimi, Azərbaycanda da ilk növbədə, risk qrupuna daxil olan insanlar peyvənd olunacaq.

Ardı 4-cü səh.



## Azərbaycan mədəniyyətinin paytaxtı

### İlham Əliyev Şuşanın tarixi kimliyini bir daha özünə qaytardı

***“Böyük fəxarət və qürur hissi ilə bəyan edirəm ki, Şuşa şəhəri işğaldan azad edildi! Şuşa bizimdir!..***
***İyirmi səkkiz il yarım işğal altında olan Şuşa azad edildi! Şuşa indi azaddır! Biz Şuşaya qayıtmışıq! Biz bu tarixi Qələbəni döyüş meydanında qazandıq. 2020-ci il noyabrın 8-i Azərbaycan tarixində əbədi qalacaqdır. Bu tarix əbədi yaşayacaq. Bu, bizim şanlı Qələbəmizin, zəfərimizin günüdür!..***
***Bu tarixi bir gündə Azərbaycan xalqına bu müjdəni vermək mənim həyatımda bəlkə də ən xoşbəxt günlərimdən biridir.***
***Əziz Şuşa, sən azadsan!***
***Əziz Şuşa, biz qayıtmışıq!***
***Əziz Şuşa, biz səni dirçəldəcəyik!”***

Ardı 5-ci səh.

## 44 günlük müharibə Ermənistana baha başa gəldi

İkinci Qarabağ müharibəsi Ermənistana bütün sahələrdə ağır zərbə vurdu. Ölkə aylardır siyasi böhrandan çıxa bilmir, sosial-iqtisadi sferada tənəzzülə uğrayıb. Digər tərəfdən, 44 günlük müharibənin Ermənistana vurduğu ziyan milyardlarla dollar həcmindədir.

Ermənistanda bəzi qüvvələr artıq etiraf etməyə başlayıblar ki, 44 günlük müharibə ölkədə böyük maliyyə itkisinə yol açıb. Ermənistanın Hərbi Sığorta Fondunun qəyyumlar şurasının üzvü Mesrop Manukyan “Facebook”dakı səhifəsində yazıb ki, baş nazir Nikol Paşinyan ölkəyə ən azı 38,4 milyard dollar ziyan vurub. O, müharibədəki insan amilini də nəzərdən keçirib. Bildirib ki, buraya 4500-ə yaxın ölən və itkin düşən hərbçilər, 5 minə yaxın birinci dərəcəli, 6 minə yaxın ikinci dərəcəli əlillər daxildir. Erməni ekspert qeyd edib ki, “Ayastan” erməni fondu Azərbaycanın azad etdiyi ərazilərə 150 milyon dollara yaxın investisiya yatırmışdı. Təkcə Şuşada 15 milyon dollarlıq proqramların icra olunduğu iddia edilir.

M.Manukyan ölkəsinin müdafiə sisteminə 2 milyard dollara yaxın zərər dəydiyini, Zod qızıl mədəninin itirilməsi nəticəsində Ermənistanın 8 milyard dollardan məhrum olduğunu da deyib. Burada söhbət Kəlbəcər rayonunun ərazisində yerləşən qızıl yatağından gedir. Xatırladaq ki, Ermənistan bu yatağı istismar etməklə Azərbaycana külli miqdarda zərər vurub.

M.Manukyan qeyd edib ki, Qarabağda itirilmiş hidroelektrik stansiyaların dəyəri 600 milyon dollara yaxındır. Ekspert digər itkilərin də olduğunu əlavə edib. Ancaq Manukyan unudur ki, Ermənistan 30 illik işğalı nəticəsində Azərbaycana yüz milyardlarla dollar zərər vurub və bunun kompensasiya edilməsi qarşıdakı dövr ərzində mühüm məqamlardan biridir.

Əslində isə 44 günlük müharibədə Ermənistanın hərbi potensialına vurulan ziyan 4 milyard ABŞ dollarına yaxındır. Bu isə ümumilikdə Ermənistanın itkilərinin 40 milyard dollardan çox olduğunu göstərir.

“4rd.am” saytı yazır ki, müharibədəki məğlubiyyətdən sonra Ermənistanda əhali 2021-ci ildən yaxşı heç nə gözləməsin: “Maksimum dərəcədə qənaət etmək lazımdır. Çünki ölkənin valyuta ehtiyatları tükənir”. Saytda yazılır ki, Ermənistanda yoxsulluq pik həddədir, miqrasiya tempi isə əvvəlkindən də yüksəkdir: “Əhali iş tapa bilmir. Həyat səviyyəsi ildən-ilə aşağı düşür. Hökumət vətəndaşların rifahı üçün heç bir cəhd göstərmir.

Ardı 4-cü səh.

# Zərər vurulmuş obyektlərin tam bərpası və təmir-tikinti işlərinin həyata keçirilməsi üçün yaşayış evlərinin və obyektlərin tikintisi üzrə sifarişçi funksiyaları, habelə inşa prosesində həyata keçiriləcək işlərin təşkili və əlaqələndirilməsi Dövlət Şəhərsalma və Arxitektura Komitəsinə həvalə edilib

Dünən Baş nazir Əli Əsədov Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 6 noyabr Sərəncamından irəli gələn məsələlərin icrası məqsədilə "2020-ci il sentyabrın 27-dən başlayaraq Ermənistan Respublikası silahlı qüvvələrinin Azərbaycan Respublikasının ərazisinə təcavüzü nəticəsində dəymiş ziyanın aradan qaldırılması ilə bağlı zərər vurulmuş obyektlərin bərpası və təmir-tikinti işlərinin həyata keçirilməsi ilə bağlı əlavə tədbirlər barədə" Sərəncam imzalayıb. Bu barədə AZƏRTAC-a Nazirlər Kabinetinin Mətbuat xidmətindən məlumat verilib.




Sərəncama əsasən, zərər vurulmuş obyektlərin tam bərpası və təmir-tikinti işlərinin həyata keçirilməsi üçün yaşayış evlərinin və obyektlərin tikintisi üzrə sifarişçi funksiyaları, habelə inşa prosesində həyata keçiriləcək işlərin təşkili və əlaqələndirilməsi Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsinə həvalə edilir.

Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi, Azərbaycan Respublikasının Maliyyə Nazirliyi və aidiyyəti yerli icra hakimiyyəti orqanlarına tapşırılır ki, bu sərəncamın icrasının təmin edilməsi ilə bağlı aidiyyəti üzrə lazımi tədbirlər görsünlər.

# Moskva görüşünün nəticələri və perspektivlər

Bildiyimiz kimi, yanvarın 11-də Moskvada Rusiya Prezidenti Vladimir Putin, Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyanın iştirakı ilə 2020-ci il noyabrın 10-da Dağlıq Qarabağa dair imzalanmış üçtərəfli bəyanatın reallaşdırılması ilə əlaqədar görüş keçirildi. Görüş zamanı Putin, Əliyev və Paşinyan razılaşmanın, həmçinin Rusiya tərəfindən həyata keçirilən sülhməramlı prosesin uğurunu təsdiqlədilər. AZƏRTAC xəbər verir ki, bu fikirlər Milli Məclis sədrinin müavini Adil Əliyevin "Moskva görüşünün nəticələri və perspektivlər" adlı məqaləsində yer alıb. Məqaləni təqdim edirik.



Görüşdə Rusiya tərəfinin əsas mövqeyi noyabrın 10-da əldə olunan razılaşmanın uğurunu nümayiş etdirmək və ATƏT-in Minsk qrupunun digər həmsədrlərinə nisbətən prosesdə daha operativ iştirak etdiyini göstərmək oldu.

Azərbaycan Prezidenti İlham Əliyev 30 ilə yaxın müddətdə fəaliyyət göstərən Minsk qrupunun heç bir işə yaramadığını və münaqişənin rəşadətli Ordumuzun gücü ilə qısa müddətdə, cəmi 44 gün ərzində həll edildiyini dünyaya nümayiş etdirdi.

Keçirilən görüş nəticə etibarilə aşağıdakı qənaətə gəlməyə əsas verir:

- sülh prosesi hər üç tərəfin təsdiqlədiyi üçtərəfli formatda uğurla davam edir;

- digər həmsədrlərin müdaxiləsi sülh prosesini pozmaq təhdidi nümayiş etdirir. Nəticədə ABŞ və Fransa kənara çəkilir, Rusiya isə münaqişənin həllində gedişat ilə bağlı digər həmsədrləri məlumatlandırmağı öhdəsinə götürür. Eyni zamanda, ATƏT-in mandatı qorunur və bütün razılaşmalar beynəlxalq hüququn tələblərinə uyğun olaraq həyata keçirilir. Bu səbəbdən də V.Putin öz çıxışında 10 noyabr bəyanatını "sülh razılaşması" adlandırdı.

Məlumdur ki, Rusiya üçün ABŞ-ın Cənubi Qafqazda gedən proseslərə təsirlərini azaltmaq vacibdir. 28 ilin nəticələri açıq-aydın göstərdi ki, 1992-ci ilin yayında yaradılan Minsk qrupu Dağlıq Qarabağ münaqişəsinin həllinə töhfə vermədi. Əksinə, böyük imkanlara malik erməni lobbilərinin fəaliyyət göstərdiyi ABŞ və Fransanın həmsədrliyi yalnız və yalnız danışıqlar prosesində Ermənistanın mövqeyini gücləndirdi, münaqişənin həllinin qeyri-müəyyən vaxtadək uzanmasına, status-kvonun saxlanmasına səbəb oldu.

Təsadüfi deyildir ki, Ermənistan hələ də Minsk qrupunun hər üç həmsədrinin iştirakı ilə danışıqları canlandırmağa çalışır. Zənnimcə, Fransa Prezidenti Emmanuel Makrona məlumat sızdırmalarında əsas məqsəd də danışıqlar prosesinə digər həmsədr ölkələri də qoşmaq və münaqişənin həllini dalana dirəmək cəhdi idi. Paşinyan Moskva görüşündə bir daha Minsk qrupunun vasitəçiliyini qeyd etdi. Buna baxmayaraq, Azərbaycanın mövqeyi, Ermənistanın Fransanı prosesə cəlb etmək istəyini təsirsiz hala gətirdi.

Rusiya, Azərbaycan və Ermənistan liderlərinin 2021-ci il 11 yanvar tarixli Bəyanatı ötən il 10 noyabrda imzalanmış sülh müqaviləsinin 9-cu bəndinin həyata keçirilməsini izah edən bəyanat kimi qəbul edilə bilər. Hər üç liderin imzaladığı yeni sənəd prosesə lazımi ağırlıq və qaçılmazlıq verir, habelə sülh prosesini və Ermənistanın kapitulyasiyasını birbaşa təsdiqləyir.

Bəyanatdan aydın olur ki, layihələrin qəti təsdiqinə dair danışıqlar 2021-ci ilin martında baş tutacaq. Göründüyü kimi, tərəflər inşaat işlərinə yazın əvvəlində başlamağı planlaşdırır, layihələr bir çox məsələlərin həllini əhatə edəcək və tərəflər arasında ətraflı müzakirə olunacaq. Həmin layihələrdə Zəngilandan Naxçıvana doğru Zəngəzurdan keçən dəmir yolu və magistral yolların çəkilişi, Azərbaycanla Naxçıvan və Türkiyə arasında nəqliyyat infrastrukturunun bərpası, dəmir yolunun salınması əsas məsələdir.

Qeyd etmək lazımdır ki, Türkiyə ilə ölkəmiz arasında ticarət dövriyyəsi hər keçən gün daha da artır, iqtisadi əlaqələr güclənir, amma indiyədək bütün tranzit yollar yalnız Gürcüstan ərazisindən keçdiyi üçün daşımalar yalnız o marşrutla mümkün olurdu. Ona görə də birbaşa yolların açılması vacibdir. Rusiya ilə Türkiyə arasındakı mövcud siyasi və iqtisadi tərəfdaşlıqlar fonunda Rusiya üçün də etibarlı rabitə əlaqəsi vacibdir. Rusiya-Türkiyə daşımalarının ölkəmiz üzərindən keçməsi təbii ki, Azərbaycana əlavə qazanc gətirəcək.

Yeni imzalanmış bəyanatda vurğulanan mühüm məsələ qısa müddətdə yeni yollar salınaraq infrastrukturun bərpası, iqtisadi əlaqələrin genişlənməsidir. Təbii ki, bütün bu layihələr ölkəmizin ərazi bütövlüyü çərçivəsində həll olunacaq.

Onu da qeyd edək ki, hazırda Qarabağ ermənilərinin tərksilah edilməsi və üçüncü şəxslərin Qarabağa girişi məsələləri Paşinyanla deyil, birbaşa Rusiya Prezidenti Vladimir Putinlə həll edilir, çünki indi Laçın dəhlizinə və Qarabağ ermənilərinə nəzarəti Rusiya sülhməramlıları həyata keçirir. Bu faktın özü həm Ermənistan rəhbərliyinə və cəmiyyətinə, eyni zamanda, bütün dünyaya açıq mesaj verir ki, Azərbaycanın razılığı olmadan nəinki Dağlıq Qarabağda, eləcə də Cənubi Qafqazda heç bir məsələ həll edilə bilməz və hər hansı bir təxribat Ermənistan üçün daha böyük itkilər hesabına başa gələr. Azərbaycan rəhbərinin dediyi kimi, "dəmir yumruq yerindədir!"

Sülh razılaşmasından sonrakı dövrə nəzər saldıqda görürük ki, ötən iki ayda erməni diversantlarına qarşı tərəfimizdən iki hərbi əməliyyat keçirilib. Həmin əməliyyatların birində Ermənistan silahlı qüvvələrinin 62 hərbçisi yaxalanıb. Moskva görüşündə Paşinyan həmin hərbçilərin qaytarılmasını xahiş etsə də, bu xahiş rədd edildi. Çünki həmin hərbçilər sülh danışıqlarından sonra təxribat törədərkən yaxalanıblar. Bu səbəbdən də onların qaytarılması istisnadır.

Ermənistandakı mövcud durumda Paşinyanın vəziyyəti olduqca ağrılıdır. O, hakimiyyətə gəldiyi gündən etibarən xalqın etimadını qazana bilməyib, üstəlik də fəaliyyəti dövründə ölkə daxilində çox ciddi narazılıqlar yaradıb. Baş verənlərin fonunda azad mətbuata tətbiq etdiyi senzura, bloqqerlərin və jurnalistlərin həbsi və təqib edilməsi, müxalifətlə çəkişmələri, uğursuz kadr siyasəti erməni xalqı tərəfindən daim narazılıqla qarşılanıb. Habelə 44 günlük müharibədə Ermənistanın rüsvayçı məğlubiyyəti və kapitulyasiya aktına imza atması, habelə döyüşlərdə on mindən çox hərbçinin ölümü bu ölkədə çox ciddi narazılıq yaradıb. Vəziyyət o yerə çatıb ki, günlərlə davam edən etiraz mitinqləri və istefa çağırışları ilə ürəyi soyumayan narazı kütlə Paşinyanın aeroporta gedən yolunu belə bağlamışdı. Bu səbəbdən də Moskva görüşündə ən kiçik uğur qazanmaq belə Paşinyan üçün çox vacib idi, lakin yeganə istəyi olan əsirlərin qaytarılmasından da imtina olundu.

Xülyalarla yaşayan Ermənistan tərəfi hələ də "status" çağırışlarını davam etdirir. Amma artıq qatar gedib, bu məsələ tarixdə qalıb. Azərbaycan illər uzunu Qarabağa ən yüksək muxtariyyət verməklə Ermənistan silahlı qüvvələrinin oradan sülh yolu ilə çıxarılmasını istəyib, lakin erməni havadarlarının iştahası böyük olduğundan buna razılıq verməyiblər. Vətən müharibəsindən sonra isə bu, mümkün deyil. Çünki rəşadətli Azərbaycan Ordusu müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə öz torpaqlarını döyüşərək, itkilər verərək, igid oğullarının qanı bahasına işğaldan azad edib.

Azərbaycan Prezidenti deyib ki, status-kvo artıq yoxdur. Tezliklə azərbaycanlılar Dağlıq Qarabağa, Şuşaya, işğaldan azad olunmuş digər şəhər və kəndlərə qayıdacaqlar. Azərbaycan əhalisi öz yurdunda məskunlaşdıqca erməni əhalisi ilə say nisbəti də aydınlaşacaq. Madrid prinsipləri ilə bağlı danışıqlarda olduğu kimi, 1988-ci ildən əvvəlki nisbətlərə istinadlar bu çərçivədə işləmir. Çünki Dağlıq Qarabağ Ermənistanın nəzarəti altında olduğu zaman ermənilər azərbaycanlıların öz dədə-baba yurdlarına qayıtmasına icazə verməməyə çalışırdılar. İndi isə vəziyyət dəyişib və soydaşlarımız öz evlərinə qayıdacaqları günü səbirsizliklə gözləyirlər. Azərbaycanlıların işğaldan azad olunmuş torpaqlarımıza qayıtmasına az qalıb.

# ISESCO nümayəndə heyətinin Azərbaycana səfərinə həsr olunmuş mətbuat konfransı keçirilib

Yanvarın 14-də ADA Universitetində İslam Dünyası Elm, Təhsil, və Mədəniyyət Təşkilatının (ISESCO) Baş direktoru Salim bin Məhəmməd əl-Malikin və mədəniyyət naziri Anar Kərimovun birgə mətbuat konfransı keçirilib.






AZƏRTAC xəbər verir ki, ISESCO-nun nümayəndə heyətinin ölkəmizə səfərinə həsr olunmuş mətbuat konfransında mədəniyyət naziri Anar Kərimov çıxış edərək deyib: "Artıq bir neçə gündür İslam dünyasının 54 ölkəsini birləşdirən ISESCO-nun Baş direktoru ölkəmizdə səfərdədir. Biz Salim əl-Malikin təşkilata yeni Baş direktor kimi fəaliyyətə başladıqdan sonra ilk səfərini ölkəmizə etməsini əlamətdar hadisə hesab edirik. Azərbaycanla ISESCO arasında əməkdaşlıq Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın bu təşkilatın xoşməramlı səfiri seçilməsindən sonra daha da genişlənib. Ötən dövr ərzində Azərbaycan ISESCO ilə çoxsaylı beynəlxalq layihələr həyata keçirib, 2009-cu ildə Bakı, 2018-ci ildə isə Naxçıvan şəhərləri İslam Mədəniyyətinin Paytaxtı seçilib, 2009-cu ildə Bakıda İslam ölkələrinin mədəniyyət nazirlərinin toplantısı, 2015-ci ildə ISESCO-nun 12-ci Baş Konfransı və İcraiyyə Şurasının 36-cı iclası keçirilib. Bununla yanaşı, təşkilatla digər sahələrdə də layihələr və tədbirlər reallaşdırılıb. ISESCO Prezident İlham Əliyevin qlobal təşəbbüsü olan və BMT tərəfindən qəbul olunan "Bakı Prosesi"nin əsas tərəfdaşlarındandır və bu təşəbbüs çərçivəsində 2011-ci ildən təşkil edilən V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunda rəsmi tərəfdaş qismində iştirak edib".

Anar Kərimov son 30 il ərzində Ermənistan tərəfindən işğal altında saxlanılmış ərazilərin, xüsusilə də Azərbaycan mədəniyyətinin beşiyi hesab edilən Şuşa şəhərinin müzəffər Ordumuz tərəfindən azad edilməsi, bunun dünya və İslam mədəniyyəti üçün əhəmiyyəti barədə məlumat verib. Qeyd edib ki, Qarabağ bölgəsinin işğalı nəticəsində bir sıra şəhərlər tamamilə məhv edilib, bütün mədəni mülkiyyət talan olunub, tarixi abidələr və mədəniyyət müəssisələri vəhşicəsinə dağıdılıb, xüsusilə İslam irsinə aid olan abidələr və məscidlər təhqir edilib.

İşğaldan azad olunmuş ərazilərdə inventarlaşma işlərinin aparıldığını söyləyən nazir bildirib ki, hazırda 6 rayon üzrə məlumatlar əldə edilib: "Bugünə olan məlumata əsasən həmin ərazilərdə 399 mədəniyyət müəssisəsi aşkar edilib. Eyni zamanda 372 tarixi mədəniyyət abidəsi müəyyənləşib. Onlardan 195-i Şuşada yerləşir".

Anar Kərimov hazırda əldə edilən məlumatların sistemləşdirildiyini söyləyib: "Hazırda nazirlikdə yol xəritəsi hazırlanır. Bu prosesə həm yerli, həm də xarici ekspertlərin cəlb edilməsi nəzərdə tutulur. Abidələrin bərpasına gəldikdə, artıq təsnifatlandırma aparmışıq. Təbii ki, ilk növbədə, dünya əhəmiyyətli abidələrdən başlamalıyıq. Bərpa işləri Şuşa şəhərində başlayacaq. Bildiyiniz kimi, Şuşa şəhəri minalardan təmizlənib, digər tərəfdən, Şuşa ölkəmizin mədəniyyət paytaxtı elan olunub. Daha sonra Ağdam, Füzuli və digər rayonlardakı abidələrin də bərpası aparılacaq".

Nazir xüsusi olaraq vurğulayıb ki, 44 günlük Vətən müharibəsi zamanı ISESCO Azərbaycanın haqq işinə öz dəstəyini əsirgəməyib və ölkəmizin haqlı mövqeyini müdafiə edib: "Ermənilər işğal etdikləri torpaqlarımızda etnik təmizləmə ilə yanaşı, mədəni təmizləmə də aparıblar. Bu, insanlığa qarşı cinayətdir. İnanırıq ki, ISESCO bununla bağlı hesabat hazırlayacaq və texniki heyət göndərəcək. Biz bu il ərzində təşkilatın regional mərkəzinin açılmasını planlaşdırmışıq. Mərkəz həm təşkilatla Azərbaycan, həm də regional ölkələr arasında əlaqələrin inkişafına töhfə verəcək".

A.Kərimov bildirib ki, Azərbaycanda 2021-ci ilin "Nizami Gəncəvi ili" elan olunması çərçivəsində ISESCO-da da bununla bağlı tədbirlər keçiriləcək. Tədbirlər Nizami Gəncəvinin İslam dünyasına verdiyi töhfələrin beynəlxalq ictimaiyyətə çatdırılmasında əhəmiyyətli rol oynayacaq.

Sonra Salim bin Məhəmməd əl-Malik Azərbaycan xalqını tarixi Qələbə münasibətilə təbrik edərək ISESCO-nun bu məsələdə ilk günlərdə bəyanat verərək Azərbaycana tam olaraq öz dəstəyini ifadə etdiyini bildirib.

Salim əl-Malik ölkəmizə səfəri barədə təəssüratlarını bölüşərək deyib: "Təşkilatımıza üzv olan hər bir ölkə bizim üçün vacibdir. Biz bu il üzv ölkəmiz olan Azərbaycanın Qələbəsini qeyd edirik. Azərbaycan dost və qonaqpərvər ölkədir. Buraya yalnız dəstək və Qələbəni qeyd etmək üçün deyil, həm də Azərbaycanın işğaldan azad olunmuş torpaqlarında olanları görmək üçün gəlmişik. Hər zaman deyilir ki, görmək inanmaqdır. Biz səfərimiz zamanı əsrlərlə mövcud olan Azərbaycan mədəni irsinin məhv edildiyini gördük. Törədilənlər insanlığa qarşı cinayətdir. Biz Füzuliyə səfər etdik, burada kitabxanalar, məktəblər, qəbiristanlıqlar, hətta yollar belə dağıdılıb. Ağdama səfərimizdə biz yalnız məhv edilmiş binaların divarlarının qalıqlarına şahid olduq. Məscid, teatr binasına getdik. Bu abidələrin yalnız divarları qalıb. Bütün bunları törədənlər əməllərinə görə cavab verməlidir. ISESCO-nun texniki missiyası tezliklə Azərbaycana səfər edəcək. Fevral ayının sonuna kimi texniki missiyanın işğaldan azad olunmuş bölgələrə gəlişi baş tutacaq. ISESCO nümayəndə heyəti qayıtdıqdan sonra komanda təşkil ediləcək. Komandada üzv ölkələrlə yanaşı, üzv olmayan dövlətlər də yer alacaq. Növbəti həftənin sonunda biz səfərin hesabatı ilə bağlı ekspertləri təyin edəcəyik və bundan sonra texniki missiyanın səfərini həyata keçirməyə çalışacağıq".

Yaxın günlərdə Şuşanın İslam Mədəniyyətinin Paytaxtı elan olunacağını söyləyən ISESCO-nun Baş direktoru deyib ki, bu barədə yekun qərar elan olunacaq: "ISESCO-nun Azərbaycanda açılacaq regional mərkəzinin gələcəkdə Şuşaya köçürülməsi təklifini vermişik. Regional ofisin Bakıda açılması hazırkı vəziyyət üçün münasibdir, lakin Şuşa şəhəri bərpa olunduqdan və orada həyat normala döndükdən sonra ISESCO-nun regional ofisinin Şuşaya köçürülməsi təklifi reallaşa bilər".

Sonra jurnalistləri maraqlandıran suallar cavablandırılıb.

# Azərbaycanın innovativ dövlət idarəçiliyi sahəsində əldə etdiyi uğurları Beynəlxalq Forumun gündəliyində

Yanvarın 14-də Moskvada ənənəvi Qaydar Forumu işə başlayıb. "Rus Davos"u kimi səciyyələndirilən toplantıda hər il olduğu kimi dünyanın müxtəlif ölkələrindən nüfuzlu ekspertlər, dövlət qurumlarının təmsilçiləri, ictimai və siyasi xadimlər iştirak ediblər.



"Rusiya və dünya pandemiyadan sonra" başlığı altında keçirilən forum çərçivəsində "Postsovet məkanı ölkələrində dövlət idarəçiliyinin təkamülü" informasiya-analitik hesabatının təqdimatı baş tutub. Təqdimata o cümlədən Avropa İttifaqı üzvü olan bütün postsovet ölkələrinin aparıcı idarəçilik məktəblərinin rəhbərləri qatılıblar. Sözügedən ölkələrdə dövlət idarəçilik sisteminin və bütövlükdə dövlətlərin davamlı inkişafı və inklüziv cəmiyyətin formalaşdırılması müqayisəli təhlillər əsasında müzakirə edilib.

Onlayn keçirilən tədbirdə çıxış edən Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik Urxan Ələkbərov əsasını Ümummilli Lider Heydər Əliyevin qoyduğu, ölkə Prezidenti cənab İlham Əliyevin uğurla davam etdirdiyi inkişaf strategiyası sayəsində Azərbaycan Respublikasının qazandığı nailiyyətlərə diqqət çəkib. Rektor Prezident İlham Əliyev tərəfindən işlənmiş və tətbiq edilmiş sinergetik, komplementar və kompensasion prinsip və yanaşmalar kompleksini ehtiva edən yeni dövlət idarəçiliyi texnologiyalarının Azərbaycanın davamlı inklüziv inkişaf naminə resurslardan səmərəli istifadə sahəsində regional və qlobal liderə çevrilməsinə yol açdığını xüsusi vurğulayıb. Bildirib ki, hazırda qlobal prioritet olan inklüziv inkişaf beynəlxalq qurumlar tərəfindən 12 iqtisadi, sosial, ekoloji, demoqrafik göstərici əsasında dəyərləndirilir və ölkələrdəki dinamik dəyişikliklərin geniş spektrini dolğun şəkildə xarakterizə edir. Dünya İqtisadi Forumunun hesabatına əsasən, inklüziv inkişaf indeksinə görə Azərbaycan Respublikası postsovet ölkələri arasında Litva və Estoniyadan sonra üçüncü yeri tutur.

Akademik U.Ələkbərovun qeyd etdiyinə görə, eyni zamanda Davos Forumu Azərbaycanı davamlı inkişaf edən inklüziv cəmiyyətin qurulması naminə dünyada resurslardan ən səmərəli istifadə edən ölkə olaraq müəyyənləşdirib. Natiq Dünya Bankı və Dünya İqtisadi Forumunun bilgilərinə əsasən ölkənin inklüziv inkişaf indeksinin ABŞ, Yaponiya, İsrail, İtaliya, İspaniya, Yunanıstan, Portuqaliya və digər iqtisadi imkanları Azərbaycanınkından bəzi hallarda hətta dəfələrlə yüksək olan dövlətlərdən üstün olduğunu diqqətə çatdırıb. Bu durumun çoxmillətli və çoxkonfessiyalı Azərbaycanda aparılan uğurlu sosial siyasətlə bağlılığını qeyd edən akademik Davos Forumunun prezidenti, professor Klaus Şvabın dünyanın 146 ölkəsində iqtisadi imkanlar və sosial siyasətlə əlaqədar hesabatından bəhs edib. Qeyd edilib ki, ABŞ, Almaniya, Danimarka, Braziliya, Cənubi Afrika, Vyetnam kimi ölkələrin nailiyyətlərinin müqayisə edildiyi həmin hesabatda Azərbaycan iqtisadi imkanlarından sosial problemlərin həlli və inklüziv cəmiyyətin formalaşdırılması naminə ən səmərəli istifadə edən nümunəvi ölkə kimi təqdim olunub. Həmin hesabata görə, Azərbaycanın reytinqi +23-dür və bu, dünyada ən yaxşı göstəricidir. Akademik Urxan Ələkbərov həmin indikatora əsasən ikinci yerdə +13 göstərici ilə Çex Respublikasının qərarlaşdığını bildirib. Rektor həmçinin Azərbaycanda tətbiq edilən innovativ idarəçilik texnologiyaları kompleksinin yüksək səmərəliliyinin BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsinin uğurla yerinə yetirilməsində və 30 il Ermənistan tərəfindən işğal altında saxlanılan ərazilərin azad edilməsində təzahürünü tapdığını da xüsusi vurğulayıb. U.Ələkbərov bu Zəfərin cəmi 44 günə başa gəlməsi və Azərbaycanın ərazi bütövlüyünün tam bərpasını ölkə Prezidentinin innovativ inkişaf strategiyasının təntənəli yekunu kimi dəyərləndirib.

***"Azərbaycan"***

# Zəfər muzeyinin məzmununun hazırlanması ilə əlaqədar ekspert qrupu yaradılıb




Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə Vətən müharibəsi memorial kompleksi və Zəfər muzeyinin məzmununun hazırlanması ilə bağlı növbəti onlayn iclas keçirilib.

AZƏRTAC xəbər verir ki, iclası giriş sözü ilə açan mədəniyyət naziri Anar Kərimov Vətən müharibəsi memorial kompleksi və Zəfər muzeyinin yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin 3 dekabr 2020-ci il tarixli Sərəncamının icrası ilə bağlı nazirlik tərəfindən görülən işlər barədə məlumat verib. Bildirib ki, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın tapşırığına əsasən, Zəfər muzeyinin məzmununun hazırlanması ilə əlaqədar nazirliyin daxilində mütəxəssislərdən ibarət ekspert qrupu yaradılıb.

Mədəniyyət nazirinin müavini Sevda Məmmədəliyeva qeyd edib ki, ekspert qrupunun tərkibində müxtəlif dövlət qurumlarının nümayəndələri, elm adamları, muzey mütəxəssisləri yer alıb. Artıq ekspert qrupunun ilk iclası gerçəkləşib.

Sonra Zəfər muzeyinin məzmununun müəllifi, tarix üzrə fəlsəfə doktoru Səbuhi Əhmədov muzeyin məzmunu, bölmələri, nümayiş olunacaq əşyalar və s. haqqında ətraflı məlumat verib. Bildirib ki, muzeyin məzmunu beynəlxalq müasir təcrübə əsasında hazırlanıb.

Daha sonra onlayn iclas ekspert qrupu üzvlərinin müzakirə və fikir mübadiləsi ilə davam edib.

Mədəniyyət naziri Anar Kərimov Zəfər muzeyində "Böyük Qayıdış" layihəsinin təqdim olunmasının vacibliyini vurğulayıb. Qeyd edib ki, muzey daha çox xalqımızın qəhrəmanlıq tarixini əks etdirən konsepsiya üzrə hazırlanmalı və təqdim edilən məlumatlar mütəmadi yenilənməlidir.

İclasda ekspert qrupunun üzvləri - Prezident Administrasiyasının sektor müdiri Fuad Axundov, Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin rəis müavini, rəisin vəzifə səlahiyyətlərini icra edən Azad Cəfərli, AMEA-nın Milli Azərbaycan Tarixi Muzeyinin direktoru Nailə Vəlixanlı, Memarlıq və İnşaat Universitetinin rektoru Gülçöhrə Məmmədova, Prezident yanında Dövlət İdarəçilik Akademiyasının professoru Elçin Əhmədov, Musiqi Mədəniyyəti Dövlət Muzeyinin direktoru Alla Bayramova, Azərbaycan İstiqlal Muzeyinin direktoru vəzifəsini icra edən Sədi Mirseyibli, Sumqayıt Regional Mədəniyyət İdarəsinin baş məsləhətçisi - Şuşa şəhəri üzrə nümayəndə Zahid Abbasov, tarixçi Fuad Axundov, "Bakı İncəsənət Mərkəzi" Yaradıcılıq Birliyinin baş direktoru Rafael Gülməmmədli, dünya şöhrətli fotoqraf Rza Diqqəti və başqalarının fikirləri dinlənilib.

Çıxışlarda Zəfər muzeyinin ilkin məzmunun uğurlu alındığı və təqdimatda daha çox müasir innovativ üsullara üstünlük verilməli olduğu qeyd edilib. Həmçinin ekspertlər tərəfindən muzeylə bağlı qeyd edilən təkliflərin nəzərə alınacağı və görülən işlərin davam etdiriləcəyi vurğulanıb.

# Azərbaycanın xarici işlər naziri Pakistan Prezidenti ilə görüşüb



Pakistana rəsmi səfəri çərçivəsində yanvarın 14-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Pakistan İslam Respublikasının Prezidenti Arif Alvi ilə görüşüb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, Pakistan Prezidenti Arif Alvi səmimi salamlarını Prezident İlham Əliyevə çatdırmağı xahiş edib və Azərbaycan Prezidentini Pakistanda qəbul etməkdən məmnunluq duyacağını bildirib. O, Azərbaycanın ərazilərinin işğaldan azad olunması və əldə olunan Qələbə münasibətilə təbrik edib.

Arif Alvi Qoşulmama Hərəkatının Bakıda keçirilən dövlət və hökumət başçılarının Zirvə toplantısında iştirakını və bu zaman Azərbaycan Respublikasının Prezidenti ilə görüşünü xatırladıb, Azərbaycanın dövlət başçısının uzaqgörən siyasətçi olduğunu xüsusilə vurğulayıb.

Hər iki ölkənin regional münaqişələrin beynəlxalq hüququn prinsipləri əsasında həllinə dair mövqeləri və bu xüsusda nümayiş olunan qarşılıqlı dəstək qeyd olunub. Pakistan Prezidenti həmçinin ölkələrimiz arasında ikitərəfli münasibətlərin inkişafı, o cümlədən iqtisadi, ticarət və digər sahələrdə əməkdaşlığın daha da genişləndirilməsinin vacibliyini vurğulayıb.

Ceyhun Bayramov öz növbəsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin səmimi salamlarını Pakistanın dövlət başçısına çatdırıb. Pakistanın Azərbaycanın beynəlxalq hüquqa və ədalətə əsaslanan mövqeyinə verdiyi dəstəyi vurğulayan nazir xüsusilə 44 günlük Vətən müharibəsi dövründə dost və qardaş Pakistanın nümayiş etdirdiyi birmənalı dəstəyə görə qarşı tərəfə təşəkkürünü ifadə edib.

Azərbaycanın Cammu və Kəşmir məsələsinin beynəlxalq hüququn norma və prinsipləri, həmçinin BMT Təhlükəsizlik Şurasının qətnamələri əsasında həllini dəstəklədiyi və İslam Əməkdaşlıq Təşkilatının müvafiq kontakt qrupu çərçivəsində iştirakımız qeyd olunub.

Azərbaycanın işğal edilmiş ərazilərində bərpa və reabilitasiya işlərinin həyata keçirilməsindən bəhs edən nazir Ceyhun Bayramov hazırkı mərhələdə dost ölkələrin bu fəaliyyətə cəlb oluna biləcəyini qeyd edib.

Görüşdə tərəflər ikitərəfli əməkdaşlığın gələcəkdə daha da inkişaf etdirilməsində qətiyyətli olduqlarını ifadə ediblər.

# Azərbaycan ilə İran arasında hərbi və hərbi-texniki əməkdaşlıq məsələləri müzakirə olunub



Yanvarın 14-də Azərbaycan Respublikasının müdafiə naziri, general-polkovnik Zakir Həsənov İran İslam Respublikasının ölkəmizdə yeni təyin olunmuş səfiri Seyid Abbas Musəvi ilə görüşüb.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, səfiri ölkəmizdə diplomatik fəaliyyətə başlaması münasibətilə təbrik edən müdafiə naziri ona uğurlar arzulayıb.

General-polkovnik Zakir Həsənov Vətən müharibəsində İranın Azərbaycanın mövqeyini dəstəklədiyinə görə səfirə minnətdarlığını bildirib, İran Silahlı Qüvvələrinin Baş Qərargah rəisi, general-leytenant Məhəmməd Hüseyn Baqeriyə, müdafiə və silahlı qüvvələrə dəstək naziri, general-mayor Əmir Hatəmiyə salamlarını çatdırmasını xahiş edib.

Müdafiə naziri Azərbaycan-İran münasibətlərinin inkişafında ölkə başçılarının görüşlərinin mühüm rol oynadığını qeyd edərək hərbi sahədə də əməkdaşlığın uğurla davam etdiyini vurğulayıb.

Diplomat Vətən müharibəsində qazanılan Qələbə münasibətilə ölkəsi adından Azərbaycan xalqını və dövlətini təbrik edib, şəhid hərbi qulluqçulara və mülki şəxslərə Allahdan rəhmət, yaralılara isə şəfa diləyib.

O, dost ölkə olan Azərbaycanda səfir kimi fəaliyyətə başlamasından məmnunluğunu, ölkələrimiz arasında əlaqələrin, xüsusilə hərbi sahədə əməkdaşlığın inkişafı üçün səylərini əsirgəməyəcəyini bildirib. Səfir iki ölkə arasında hərbi əməkdaşlığın inkişaf etməsinin regional təhlükəsizliyin təmin edilməsində vacib amil olduğunu vurğulayıb.

Tərəflər hərbi sahədə əməkdaşlığın genişləndirilməsi və hər iki ölkənin hərbi nümayəndələrinin qarşılıqlı səfərlərinin təşkili barədə fikir mübadiləsi aparıblar.

Görüşdə Azərbaycan ilə İran arasında hərbi əməkdaşlığın mövcud vəziyyəti, hərbi-texniki, hərbi təhsil və hərbi tibb sahələrində əlaqələrin inkişaf perspektivləri, həmçinin regional problemlər müzakirə olunub.

# Azərbaycan ilə Pakistan arasında saziş imzalanıb



Pakistana rəsmi səfəri çərçivəsində yanvarın 14-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov və Pakistan İslam Respublikasının xarici işlər naziri Məhdum Şah Mahmud Qureşi arasında görüş keçirilib.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, Azərbaycanın işğal edilmiş ərazilərinin azad olunması münasibətilə təbriklərini ifadə edən pakistanlı nazir ölkəsinin Azərbaycanın beynəlxalq hüquqa əsaslanan ədalətli mövqeyini hər zaman dəstəklədiyini vurğulayıb.

Nazir Ceyhun Bayramov Pakistanın hər zaman Azərbaycanın yanında olduğunu və Vətən müharibəsi dövründə Pakistan tərəfindən bütün səviyyələrdə, xüsusilə də Pakistan xalqı tərəfindən nümayiş etdirilən birmənalı dəstəyi məmnunluqla qeyd edib.

İki ölkə arasında mövcud olan tarixi və mədəni əlaqələri vurğulayan tərəflər inkişaf etməkdə olan əməkdaşlıq münasibətləri, eləcə də beynəlxalq təşkilatlar çərçivəsində sərgilənən qarşılıqlı dəstək məsələlərini müzakirə ediblər.

Azərbaycan və Pakistan arasında yüksəksəviyyəli səfər mübadilələrinin həyata keçirilməsinin ikitərəfli münasibətlərin inkişafına töhfə verəcəyi bildirilib.

Görüş zamanı həmçinin ölkələr arasında ticarət, iqtisadi, kənd təsərrüfatı, enerji, nəqliyyat, turizm və digər sahələrdə əlaqələrin daha da inkişaf etdirilməsi ətrafında fikir mübadiləsi aparılıb. İnsanlararası əlaqələr, habelə təhsil sahəsində əməkdaşlığın genişləndirilməsi məsələləri müzakirə edilib, ADA Universiteti ilə Pakistanın Xarici Xidmət Akademiyası arasında münasibətlərin inkişaf etdirilməsi vurğulanıb.

Tərəflər görüşdə həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

Görüşdən sonra nazirlər "Azərbaycan Respublikası Hökuməti ilə Pakistan İslam Respublikası Hökuməti arasında fövqəladə halların qarşısının alınması, məhdudlaşdırılması və azaldılması sahəsində əməkdaşlıq haqqında" sazişi imzalayıblar.

# Azərbaycan ilə Yaponiya arasında hərbi sahədə əməkdaşlıq məsələləri müzakirə edilib



Yanvarın 14-də Azərbaycan Respublikasının müdafiə naziri, general-polkovnik Zakir Həsənov Yaponiyanın ölkəmizdə yeni təyin olunmuş səfiri Cuniçi Vada ilə görüşüb.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, söhbət zamanı Azərbaycan ilə Yaponiya arasında bir çox istiqamətlərdə mövcud əməkdaşlığın və qarşılıqlı etimadın güclənməsinə xidmət edən fəaliyyətləri xüsusi vurğulayan nazir səfirə diplomatik fəaliyyətində uğurlar arzulayıb.

Ölkəmizdə fəaliyyətə başlamasından məmnunluğunu bildirən diplomat Azərbaycan-Yaponiya münasibətlərinin, xüsusilə hərbi sahədə əməkdaşlığın inkişaf etdirilməsində səylərini əsirgəməyəcəyini qeyd edib.

Görüşdə iki ölkə arasında hərbi sahədə əməkdaşlığın inkişaf perspektivləri və qarşılıqlı maraq doğuran digər məsələlərə dair fikir mübadiləsi aparılıb.

# Azərbaycanın xarici işlər naziri Pakistanın Sərhəd İşləri Təşkilatının baş direktoru ilə görüşüb



Pakistan İslam Respublikasına rəsmi səfəri çərçivəsində Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov Sərhəd İşləri Təşkilatının baş direktoru general-mayor Kamal Azfar ilə görüşüb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, Sərhəd İşləri Təşkilatının baş direktoru Kamal Azfar təşkilatın fəaliyyət sahələri barədə ətraflı məlumat verərək 45 ildən çox müddətdə Pakistanda körpülər, yollar, tunellər, eləcə də telekommunikasiya xətlərinin və s. inşası, infrastruktur xidmətlərinin inkişafı sahəsində fəaliyyətlərindən bəhs edib.

Nazir Ceyhun Bayramov bölgədə mövcud olan cari vəziyyəti qeyd edərək 44 günlük Vətən müharibəsindən sonra münaqişə sonrası bərpa və reabilitasiya mərhələsinə qədəm qoyduğumuzu bildirib. Hazırda bölgədə aparılan işlər, o cümlədən minadan təmizləmə işləri və infrastruktur layihələri qeyd olunub. Həyata keçirilən bərpa və tikinti işlərində maraqlı tərəfdaş ölkə və beynəlxalq təşkilatlarla birgə işləməyə hazır olduğumuz vurğulanıb.

Görüşdə tərəflər əməkdaşlıq perspektivləri üzrə fikir mübadiləsi aparıblar.

# *Baş Qərargah rəisi:* "Pakistan hər zaman Azərbaycanın yanında olub və onun haqlı mövqeyini dəstəkləyib"

Pakistana rəsmi səfəri çərçivəsində Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov və Pakistan İslam Respublikası Ordusunun Baş Qərargah rəisi, ordu generalı Qamar Cavid Bacva arasında görüş keçirilib.

Bu barədə AZƏRTAC-a Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən məlumat verilib.

Ordu generalı Qamar Cavid Bacva Vətən müharibəsində böyük Qələbəyə görə təbriklərini nazir Ceyhun Bayramova çatdırıb, Pakistanın hər zaman Azərbaycanın yanında olduğunu, Azərbaycanın haqlı mövqeyini dəstəklədiyini və Pakistan ordusunun ölkəmizə verdiyi mənəvi dəstəyi və həmrəyliyi ifadə edib.

Nazir Ceyhun Bayramov təbriklərə görə təşəkkürünü bildirib. Nazir Ermənistan-Azərbaycan münaqişəsinin həlli, 44 günlük Vətən müharibəsi, bu dövr ərzində Ermənistan tərəfindən törədilən müharibə cinayətləri, mülki insanların hədəfə çevrilməsi barədə, eləcə də bölgədə mövcud olan cari vəziyyət haqqında qarşı tərəfə ətraflı məlumat verib. Həmçinin nazir Pakistan tərəfinə Azərbaycanın beynəlxalq hüquqa əsaslanan mövqeyini birmənalı dəstəklədiyi və nümayiş etdirdiyi mənəvi dəstəyə görə dərin təşəkkürünü ifadə edib.

Tərəflər hazırda Azərbaycanın azad olunmuş ərazilərində aparılan minadan təmizlənmə fəaliyyəti, bərpa və tikinti işləri, infrastruktur layihələri və digər məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

İki ölkə arasında əlaqələrin inkişaf etdirilməsi, o cümlədən hərbi texniki, hərbi təhsil sahələrində əməkdaşlığın davam etdirilməsinin əhəmiyyəti vurğulanıb.

# *Baş Prokurorluq:* "KİVDF-nin vəzifəli şəxslərinin qanunsuz əməlləri ifşa edilib"

Ölkəmizdə həyata keçirilən dövlət siyasətinə uyğun olaraq demokratik cəmiyyətin əsas atributlarından olan kütləvi informasiya vasitələrinin inkişafı da daim diqqət mərkəzində saxlanılır. Bununla yanaşı, bu mühüm sahə üzrə dövlətin dəstək siyasətinə qanunsuz əməlləri ilə kölgə salan vəzifəli şəxslərin aşkarlanaraq məsuliyyətə cəlb olunmaları istiqamətində prokurorluq orqanlarının məqsədyönlü və ardıcıl tədbirləri davam etdirilir.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, belə tədbirlərdən biri kimi, Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fonduna (KİVDF) dövlət büdcəsindən ayrılan vəsaitlərin xərclənməsi zamanı aşkarlanmış qanun pozuntuları ilə əlaqədar Hesablama Palatasından daxil olmuş materiallar üzrə Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsində Azərbaycan Respublikası Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanıb.

Aparılmış istintaqla KİVDF-nin sərəncamında olan əmlakın həmin qurumun icraçı direktoru və əməkdaşlarının digər şəxslərlə əlbir olmaqla şəxsi maraqlarına uyğun istifadə etmələrinə, fəaliyyətin ayrı-ayrı istiqamətləri üzrə proqramların və vəzifələrin icra edilməsi adı ilə rəsmi sənədlərə yalan məlumatlar daxil edilərək xüsusilə külli miqdarda ziyan vurulmaqla mənimsəmələrinə, cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin leqallaşdırılmasına və digər qanunsuz əməllər törətmələrinə əsaslı şübhələr müəyyən olunub.

Belə ki, aparılmış istintaqla müəyyənləşdirilib ki, fondun icraçı direktoru Səfərli Vüqar Müzəffər oğlu "Portos" MMC-nin direktoru Məmmədov Nadir Məhərrəm oğlu və qeyriləri ilə qabaqcadan əlbir olaraq mətbuat işçilərinin mənzil-məişət şəraitinin yaxşılaşdırılması və yaşayış evlərinin tikintisi ilə bağlı 2013-2019-cu illər ərzində dövlət tərəfindən KİVDF-yə ayrılmış vəsaiti layihə və smeta sənədlərində iş həcmini əsassız şişirdib, işlərin və materialların dəyərini müəyyən edilmiş qiymətlərdən artıq göstərilməklə "Portos" MMC-nin bank hesablarına köçürmüş, bununla da mətbuat işçiləri üçün Bakı şəhəri, Səbail rayonu, 20-ci sahə, Bibiheybət qəsəbəsi ərazisində yaşayış binalarının tikintisi üzrə ayrılmış xüsusilə külli miqdarda pul vəsaitini mənimsəyib, həmin cinayət əməllərinin aşkar edilməsinin qarşısını almaq məqsədilə əlbir olduğu şəxslərlə birlikdə yerinə yetirilmiş işlərin qəbulu haqqında "Forma 2" aktlarında ayrılmış vəsaitlərin tam həcmdə binanın tikintisinə sərf edilməsinə dair yalan məlumatlar daxil edib şəxsən təsdiqləməklə vəzifə saxtakarlığı da törədib.

Bundan başqa, Vüqar Səfərli digər şəxslərlə qabaqcadan əlbir olaraq qurumun fəaliyyətinin təşkili üçün inzibati bina üzrə münasib yerin ayrılması və ya qeyri-yaşayış sahəsinin aşağı qiymətlərlə icarəyə verilməsi üçün Nazirlər Kabinetinin qərarları ilə müəyyən edilən qanuni prosedurlara qəsdən əməl etmədən, həmin fondun maliyyələşməsinin həyata keçirildiyi dövlət büdcəsindən ayrılmış vəsait üzrə icarə xərclərinin özünün əvvəllər sədri olduğu, sonradan isə özünə yaxın şəxslərin fəaliyyətlərinə faktiki nəzarəti həyata keçirməkdə davam etdiyi şirkətlərə, habelə yaxın münasibətdə olduğu digər şəxslərə gəlir qismində verilməsinə nail olmaqdan ötrü həmin şəxslərin xüsusi mülkiyyətində olan Bakı şəhəri, Yasamal rayonu, Mətbuat prospekti, 23L ünvanında yerləşən müəssisə binasının 3-cü mərtəbəsinin fondun inzibati istifadəsinə verilməsi məqsədilə maddi baxımdan fond üçün daha ağır şərtlərlə icarəyə götürülməsinə dair müqavilələr bağlayıb, 2011-2019-cu illər ərzində cəmi 812 min manat məbləğində pul vəsaitini icarə haqqı adı ilə köçürməklə dövlət büdcəsinə külli miqdarda ziyan vurub.

Həmçinin Vüqar Səfərli digər şəxslərlə qabaqcadan əlbir olaraq nəşr olunan qəzetlərə maliyyə yardımının göstərilməsi məqsədi ilə dövlət tərəfindən ayrılmış vəsaitin 2015-2019-cu illər ərzində 300 min manat məbləğində olan hissəsini ailə üzvünün adına təsis etdiyi "Futbol+Qol" qəzetinə qanunsuz olaraq köçürməklə həmin pulu, eləcə də qurumun məqsədlərinin həyata keçirilməsi üçün alınmış 103 min manat dəyərində dəftərxana ləvazimatlarını da mənimsəyib. Eyni zamanda 2017-2019-cu illər ərzində ziyafətlərin keçirilməsi ilə bağlı satınalma müqavilələrinin bağlanması zamanı qanunsuzluqlara yol verməklə KİVDF-yə məxsus olmaqla ona etibar edilmiş cəmi 105 min manat məbləğində pul vəsaitini israf edib.

Bundan əlavə, Vüqar Səfərli qeyriləri ilə qabaqcadan əlbir olaraq qeyd edilən mənimsəmə və vəzifə saxtakarlığı cinayətləri üzrə əldə etdiyi xüsusilə külli miqdarda pul vəsaitini kommersiya bankında olan milli və xarici valyutadakı depozit hesablarına 2015-2018-ci illər ərzində cəmi 5 milyon 796 min manatı yerləşdirməklə cinayət yolu ilə əldə edilmiş həmin pul vəsaitlərini külli miqdarda leqallaşdırıb.

İş üzrə toplanmış ilkin sübutlar əsasında Səfərli Vüqar Müzəffər oğlu Azərbaycan Respublikası Cinayət Məcəlləsinin müvafiq olaraq 179.4-cü (xüsusilə külli miqdarda ziyan vurmaqla mənimsəmə və israf etmə), 193-1.3.2-ci (cinayət yolu ilə əldə edilmiş külli miqdarda pul vəsaitlərini leqallaşdırma), 308.2-ci (ağır nəticələrə səbəb olan mühüm zərər vurulmaqla vəzifə səlahiyyətlərindən sui-istifadə etmə), 308-2.4-cü (satınalma prosedurları keçirilmədən külli miqdarda ziyan vurmaqla dövlət vəsaitlərini xərcləmə) və 313-cü (vəzifə saxtakarlığı), Məmmədov Nadir Məhərrəm oğlu isə Cinayət Məcəlləsinin 179.4-cü, 308.2-ci və 313-cü maddələrinə əsasən təqsirləndirilən şəxs qismində cəlb edilərək barələrində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib.

Hazırda cinayət işi üzrə həmin korrupsiya şəbəkəsində iştirak etmiş digər şəxslərin müəyyənləşdirilərək məsuliyyətə cəlb olunmaları və dövlətə vurulan ziyanın bərpa olunması istiqamətində zəruri istintaq-əməliyyat tədbirləri davam etdirilir.

# Mülki şəxsin minaya düşərək xəsarət alması faktı ilə bağlı araşdırma aparılır

Yanvarın 13-də saat 11 radələrində Bərdə rayon sakini, 1960-cı il təvəllüdlü Ocaqverdiyev Əliyar Hidayət oğlunun işğaldan azad edilmiş ərazilərimizdə işləyən zaman tank əleyhinə minaya düşərək çoxsaylı bədən xəsarətləri alması barədə rayon prokurorluğuna məlumat daxil olub.

Tərtər Rayon Prokurorluğundan AZƏRTAC-a daxil olan məlumata görə, aparılmış araşdırmalarla müəyyənləşdirilib ki, 54 saylı Xocalı yol idarəsinin əməkdaşı Əliyar Ocaqverdiyev Tərtər rayonunun işğaldan azad edilmiş Suqovuşan və Talış kəndləri ərazisindən keçən su kanalının üzərindəki körpüdə yol çəkilməsi işlərini görən zaman idarə etdiyi "LUİGONG B-160" markalı buldozer ilə tank əleyhinə minaya düşərək müxtəlif dərəcəli bədən xəsarətləri alıb.

Faktla bağlı Tərtər Rayon Prokurorluğunda araşdırma aparılır.

# Azərbaycan regionda dayanıqlı sülhün və əməkdaşlığın tərəfdarıdır

## Prezident İlham ƏLİYEV: "Dağlıq Qarabağ münaqişəsi keçmişdə qalıb və biz gələcək barədə, qonşular kimi birlikdə necə yaşamaq, nəqliyyat arteriyalarının açılması məsələlərini həll etməyə necə çalışmaq və gələcəkdə regional sabitliyi və təhlükəsizliyi möhkəmlətmək haqqında düşünməliyik"

*Əvvəli 1-ci səh.*



Ekspert yarımqrupları nəqliyyat kommunikasiyalarının bərpasına yönəlik layihələrin siyahısını təqdim edəcək, onların reallaşdırılması və tərəflərin yüksək səviyyədə təsdiq etməsi üçün zəruri resursları və tədbirləri əsaslandıracaq. Öz növbəsində işçi qrupu Azərbaycan və Ermənistan ərazisindən həyata keçirilən beynəlxalq daşımaların, həmçinin Azərbaycan və Ermənistan tərəfindən həyata keçirilən, yerinə yetirilməsi zamanı Azərbaycan və Ermənistan ərazilərinin kəsişməsi tələb olunan daşımaların təşkili, yerinə yetirilməsi və təhlükəsizliyinin təmin edilməsi üçün zəruri olan yeni nəqliyyat infrastrukturu obyektlərinin bərpasını və tikilməsini nəzərdə tutan tədbirlərin siyahısını və reallaşdırılması qrafikini üç tərəfin yüksək səviyyədə təsdiqləməsi üçün təqdim edəcək.

Yeni bəyanatda diqqəti cəlb edən məqam odur ki, sənəddə görülməsi vacib olan tədbirlərin dəqiq icra tarixləri müəyyən olunmuşdur. Belə ki, işçi qrupu ilk iclasını cari ayın 30-dək keçirməli, ekspert yarımqrupları hazırladıqları layihələri işçi qrupunun iclasından sonra bir ay müddətində təqdim etməli, işçi qrupu nəzərdə tutan tədbirlərin siyahısını və reallaşdırılması qrafikini üç ölkənin rəhbər şəxslərinin təsdiqləməsi üçün martın 1-dək təqdim etməlidir. Özü də dəmir yolu və avtomobil yolları razılaşmalarda prioritet istiqamət kimi müəyyənləşdirilmişdir.

İstər yerli, istərsə də xarici müşahidəçilərin əksəriyyəti Moskvada əldə edilmiş razılaşmaların hər üç tərəf üçün faydalı olduğunu vurğulayır. Belə ki, regionda hərtərəfli sülhü, sabitliyi və təhlükəsizliyi bərqərar etmək üçün ardıcıl konkret addımlar atılmalı, işgüzar münasibətlərin təməli qoyulmalıdır. Bu istiqamətdə çoxdan durğun vəziyyətə düşmüş nəqliyyat kommunikasiyalarının açılması ilkin şərt kimi özünü qabarıq şəkildə göstərir. Yeri gəlmişkən, Azərbaycan, Rusiya və İranın iştirakı ilə formalaşan "Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizi"nin Türkiyə və Ermənistanı da əhatə etməklə qərbə doğru genişlənməsi imkanı yaranar. Bu regional əməkdaşlığa gələcəkdə Gürcüstan da qoşula bilər. Nəticə etibarilə geniş bir regionda qarşılıqlı faydalı əməkdaşlıq formatı təşəkkül tapar, iştirakçı ölkələrə əlavə investisiyaların cəlb olunmasına, yeni iş yerlərinin açılmasına və dövlət büdcələrinə əlavə gəlirlərin daxil olmasına şərait yaradar.

Moskva razılaşmalarının reallaşdırılmasının gedişində, məsələn, Mehri dəhlizinin açılması ilə Azərbaycan Naxçıvan və Türkiyə ilə quru əlaqəsi əldə edəcək. Ermənistan bu dəhliz vasitəsilə Rusiya, İran və Türkiyə ilə dəmiryolu əlaqəsi yaradacaq. Rusiya isə Ermənistan, İran və Türkiyə ilə həm avtomobil, həm də dəmiryolu əlaqəsi əldə edəcək. Regionda yeni nəqliyyat infrastrukturunun işə düşməsi ilə iştirakçı ölkələr həm tranzitdən qazanacaq, həm də öz məhsullarını müxtəlif istiqamətlərdə ixrac edə biləcək. Başqa sözlə, hamı qazanacaq, itirən olmayacaq.

Azərbaycan, Ermənistan və Rusiya liderlərinin mətbuat üçün bəyanatlarından məlum olur ki, Moskvada postmüharibə dövründə ortaya çıxmış problemlər də müzakirədən kənarda qalmamışdır. Ermənistanın baş naziri yeni razılaşmaların mühüm olduğunu qeyd etsə də, onun Rusiya paytaxtından razı getdiyini söyləmək çətindir. Ermənistan liderini hər şeydən əvvəl Dağlıq Qarabağın statusu və hərbi əsirlərin dəyişdirilməsi məsələləri narahat edirdi.

Aydındır ki, Prezident İlham Əliyevin status məsələsinin artıq tarix olduğunu bir daha bəyan etməsi Ermənistan tərəfinə sərf etmir. Ona görə də Paşinyan ATƏT-in Minsk qrupunu dirçəltmək arzusuna düşüb. Amma çətin ki, bu arzu gerçəkləşsin, çünki Azərbaycan ərazi bütövlüyünü bərpa etdikdən sonra Dağlıq Qarabağ məsələsi Bakının daxili işidir və bu işə heç kim qarışa bilməz. Hərbi əsirlərin dəyişdirilməsi məsələsinə gəlincə, Rusiya liderinin qeyd etdiyi kimi, 10 noyabr bəyanatına uyğun olaraq əsirlərin və həlak olanların cəsədləri artıq dəyişdirilmişdir. Yəni söhbət keçən il noyabrın 10-dək əsir düşmüş şəxslərdən gedir. Həmin tarixdən sonra döyüş əməliyyatları dayandırıldığından hansısa əsirdən söhbət gedə bilməz. Yəqin ki, Paşinyan hərbi əsirlər dedikdə Azərbaycan Ordusunun ötən ayın 11-də Qarabağda antiterror əməliyyatı keçirərkən yaxaladığı erməni silahlılarını nəzərdə tutur. Həmin silahlılardan birinin Xocalı soyqırımını törədənlər arasında olduğu təsdiqlənmişdir. Aydındır ki, belələrini hərbi əsir hesab etmək mümkün deyil və ona görə də həmin silahlıların Azərbaycanın daxili qanunvericiliyinə uyğun olaraq mühakimə olunacağı tamamilə təbiidir.

Əslinə qalsa, Azərbaycanın Dağlıq Qarabağda yaranmış vəziyyətdən narazı qalması üçün kifayət qədər əsaslar var. Məsələn, Ermənistan ötən ilin noyabrında əldə edilmiş razılaşmalara zidd olaraq bu bölgədəki hərbçilərini çıxarmır. Onların isə gələcəkdə Azərbaycanın antiterror əməliyyatı keçirməyə məcbur olarkən əsir düşəcəyi istisna edilmir. Ona görə də erməni əsgərlərinin belə bir vəziyyətlə üzləşməməsi üçün rəsmi İrəvan indidən fikirləşməlidir. Üstəlik, Ermənistan rejimi yaddan çıxarmamalıdır ki, qonşu ölkənin ərazisində qanunsuz olaraq qoşun saxlamaq ikitərəfli iqtisadi münasibətlər qurmaqla bir araya sığa bilməz. Yəni Azərbaycan ərazisindən ticarət üçün istifadə etməzdən əvvəl özgə torpağında qanunsuz olaraq yerləşdirilmiş qoşun çıxarılmalıdır.

Bütövlükdə Moskva görüşünün yekunları Azərbaycan diplomatiyası üçün ciddi uğur sayılmalıdır. Prezident İlham Əliyev Azərbaycanla onun tərkib hissəsi olan Naxçıvan MR arasında nəqliyyat dəhlizinin yaradılması təşəbbüsünü irəli sürdükdən sonra bu layihənin reallaşdırılması istiqamətində konkret addımın atılmasına nail olmuşdur.

***Allahverdi MEHDİYEV,***
***"Azərbaycan"***

# Ötən il Azərbaycan və Macarıstan arasında iqtisadi əlaqələr daha da genişlənib

Azərbaycan və Macarıstan arasında iqtisadi əlaqələr ötən il də uğurla davam edərək genişlənib. Son bir ildə ticarət dövriyyəsinə dair göstəricilərin artımı da bunu deməyə əsas verir. 2019-cu ilin müvafiq dövrü ilə müqayisədə 2020-ci ilin yanvar-noyabr aylarında Macarıstan ilə ticarət dövriyyəsi 10,85 faiz, o cümlədən idxal 9,97 faiz, ixrac isə 56,59 faiz artıb.

Bu fikir Azərbaycanla Macarıstan arasında iqtisadi əməkdaşlıq üzrə birgə komissiyanın Azərbaycan tərəfindən həmsədri, əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayevlə komissiyanın Macarıstan tərəfindən həmsədri, Macarıstanın xarici işlər və ticarət naziri Peter Siyyartonun videoformatda keçirilən görüşündə vurğulanıb.

Nazirliyin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, S.Babayev Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun beynəlxalq səviyyədə tanınan ərazilərimizin işğaldan azad edilməsi uğrunda haqq savaşında əldə etdiyi tarixi Zəfərdən bəhs edib. Erməni faşizminin işğal etdiyi ərazilərdə qarət, vandalizm, ekoloji terror törətdiyini, həmin ərazilərdə yaşayış infrastrukturunu, tarixi-mədəni abidələri dağıtdığını, Azərbaycanın işğaldan azad etdiyi ərazilərdə böyük quruculuq işlərinə başlandığını diqqətə çatdırıb.

Prezident İlham Əliyevin uğurlu sosial-iqtisadi siyasətinin ölkəmizdə bütün sahələrdə dinamik inkişafı təmin etdiyini bildirən S.Babayev dünyada etibarlı tərəfdaş kimi qəbul olunan Azərbaycanın xarici ölkələrlə, o cümlədən Macarıstanla qarşılıqlı maraqlar əsasında uğurlu əməkdaşlıq əlaqələrini daim genişləndirdiyini qeyd edib. O, ölkələrimiz arasında strateji tərəfdaşlıq haqqında Birgə Bəyannamənin müsbət nəticələrini vurğulayıb. Ticarət, nəqliyyat, kənd təsərrüfatı, xidmət sahələri üzrə Macarıstan şirkətlərinin ölkəmizdə uğurlu fəaliyyətindən bəhs edib.

P.Siyyarto ölkəsinin Azərbaycanla dost münasibətlərini qeyd edib, əlaqələrin daim inkişafda olmasının, iqtisadi əməkdaşlığın genişlənməkdə davam etməsinin məmnunluq doğurduğunu bildirib. O, ölkəsi tərəfindən Azərbaycanın ərazi bütövlüyünün daim dəstəkləndiyini vurğulayıb.

Görüşdə Azərbaycan-Macarıstan iqtisadi əməkdaşlığı sahəsində əldə olunan nəticələr qeyd edilib, ikitərəfli komissiyanın fəaliyyəti, qarşısında duran vəzifələr barədə fikir mübadiləsi aparılıb.

# Şəhid ailələrinə evlərində təqaüd kartı və "Şəhid ailəsi üzvü" vəsiqəsi təqdim olunub

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Sosial Müdafiə Fondunun rəhbər şəxsləri tərəfindən şəhid ailələri ilə görüşlər davam edir.

AZƏRTAC xəbər verir ki, bu dəfə fondun sədr müavini Səfər Mehdiyev Vətən müharibəsində şəhid olmuş qəhrəmanlarımızdan Eynulla Lətifovun (Quba rayonu, İkinci Nügədi kəndi), Rəşad Səfərəliyevin (Xaçmaz şəhəri) və Ağaəli Ağayevin (Siyəzən rayonu, Balaca Həmyə kəndi) ailələrinə baş çəkib. Görüşlər zamanı ailələrin sosial vəziyyəti öyrənilib. Onlara şəhid ailələri üçün nəzərdə tutulan sosial dəstək tədbirləri barədə məlumat verilib.

Hər üç şəhidin ailəsinə Prezidentin aylıq təqaüdünün və sosial müavinətin təyin olunduğu bildirilib. Şəhid ailələrinin, həmçinin aktiv məşğulluq proqramlarına cəlb olunması işlərinin də aparıldığı qeyd edilib.

S.Mehdiyev ailələrə təqaüd kartını və "Şəhid ailəsi üzvü" vəsiqəsini təqdim edib, onların sosial vəziyyətinin həmişə diqqətdə saxlanacağını vurğulayıb.

# Vətəndaşların sağlamlığı prioritetdir

*Əvvəli 1-ci səh.*



Vaksinasiyanın dövlət hesabına və könüllülük prinsipi əsasında aparılması nəzərdə tutulur.

TƏBİB-in Elmi Komitəsinin sədri, Elmi Tədqiqat Profilaktika İnstitutunun direktor müavini, professor Akif Qurbanovun sözlərinə görə, insanların bir qismi xəstələnməklə, bir qismi isə vaksin vasitəsilə koronavirusa qarşı immunitet qazanacaq. O, qeyd etmişdir ki, əgər insanların təqribən üçdəikisi bu xəstəliyə qarşı immunitet qazansa, artıq virus aradan çıxacaq və bizi narahat etməyəcək: "Hesablamalara görə, bu vaxt da təqribən gələn ilin yayında olacaq. Deməli, gələn ilin yayına qədər bu virus bizi narahat edə bilər, amma sonra demirik ki, pandemiya bitəcək. Sonra xəstələnmələr olacaq, amma bizi daha bu qədər narahat etməyəcək. Bu, elmi proqnozlardır".

## Kompleks tədbirlər bəhrəsini verir

Azərbaycanda virusla hərtərəfli mübarizə davam etdirilir. COVID-19 infeksiyasının kütləvi yayılmasının qarşısını almaq, vətəndaşların təhlükəsizliyini təmin etmək məqsədilə lazımi tədbirlər həyata keçirilir.

Ümumiyyətlə, respublikamızda koronavirusun yayıldığı ilk günlərdən vəziyyət nəzarətə götürülmüş, genişmiqyaslı tədbirlər həyata keçirilməyə başlanmışdır. İstər insanların sağlamlığının və təhlükəsizliyinin təmin edilməsi, istərsə də koronavirus xəstələrinin müalicəsi, səhiyyə infrastrukturunun təkmilləşdirilməsi, yeni xəstəxanaların açılması və tibb müəssisələrinin texniki təchizatı baxımından bütün məsələlər uğurla həllini tapmışdır.

Ayrı-ayrı ölkələrin təcrübəsi göstərir ki, xəstəliyin qarşısını almaq üçün hökumətlər sərt məhdudiyyətlər tətbiq etmək məcburiyyətində qalıblar. Bu, iqtisadi duruma, əhalinin maddi vəziyyətinə mənfi təsir göstərsə də, insanların həyatının və təhlükəsizliyinin qorunması üçün vacibdir.

Nazirlər Kabineti yanında Operativ Qərargah tərəfindən virusun yayılmasının qarşısının alınması məqsədilə ölkəmizdə epidemioloji vəziyyətə uyğun sərt karantin rejimi və yumşaldılmalar həyata keçirilmişdir. Bu baxımdan ötən il dekabrın 14-dən bu il yanvarın 18-dək sərtləşdirilmiş karantin tədbirlərinin tətbiqi uyğun görülmüşdür ki, elə bu müddət ərzində koronavirusa yoluxma sayında xeyli azalmalar olmuşdur. Xəstəlikdən sağalanların sayı gündəlik yoluxanların sayını üstələmişdir.




Tətbiq olunan məhdudiyyətlərin iqtisadi fəallığa təsiri nəzərə alınaraq əvvəlki sərtləşdirilmiş karantin rejimi zamanı müəyyən edilmiş ehtiyacı olan təqribən 600 min nəfərə 190 manat birdəfəlik maddi yardımın göstərilməsi qərara alınmışdır. Zərərçəkmiş sahələrdə fəaliyyət göstərən sahibkarlara yardım edilmişdir.

Ümumilikdə götürsək, pandemiyaya qarşı mübarizə, habelə zərərçəkmiş kateqoriyalardan olan vətəndaşlara maliyyə dəstəyi göstərilməsi üçün dövlət büdcəsindən təqribən 2,5 milyard dollar məbləğində vəsait ayrılıb. Maliyyə dəstəyi tədbirləri Azərbaycanın beş milyona yaxın vətəndaşını əhatə edir.

Görülən bütün bu kompleks tədbirlərin nəticəsidir ki, ölkəmizdə pandemiyanın fəsadlarını minimum həddə saxlamaq mümkün olub. Vətəndaşlarının sağlamlığı və təhlükəsizliyini prioriteti hesab edən Azərbaycan dövləti pandemiyaya qarşı bütün mümkün vasitələrdən istifadə edir. Vətəndaşların vəzifəsi isə məsuliyyət göstərərək qoyulan qaydalara ciddi riayət etmək və təhlükəli virusla mübarizəyə öz töhfələrini verməkdir.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

# Böyük qayıdış yollardan başlayır

## İşğaldan azad edilmiş ərazilərdə digər infrastruktur layihələri də icra olunur

*Əvvəli 1-ci səh.*

Dövlət başçısı tərəfindən verilən tapşırığa əsasən, Laçın və ya Kəlbəcər rayonunda yeni beynəlxalq hava limanı tikiləcək. Hazırda əlverişli ərazinin seçilməsi üçün araşdırmalar aparılır. Füzuli şəhərində də hava limanı inşa olunacaq. Bu ərazilərdə beynəlxalq hava limanlarının tikintisi ilk növbədə turizmin inkişafına yönəlib.

Sözügedən müşavirədə dəmir yolları tikintisi ilə bağlı da göstərişlər verildi. Qeyd olundu ki, Horadiz-Füzuli və bundan sonra Füzuli-Şuşa dəmir yolunun tikintisi planlaşdırılır. Dövlət başçısı Şuşaya rahat gediş-gəlişi təmin etmək üçün dəmir yolunun çəkilməsinin gərəkli olduğunu xüsusi vurğuladı. Bununla yanaşı, Horadiz-Ağbənd dəmir yolu da ermənilər tərəfindən dağıdıldığı üçün yenidən tikiləcək.

Naxçıvan yolunun açılması üçün də tədbirlər görülür. Bu dəhliz təkcə ölkəmiz üçün deyil, bütün region üçün geniş imkanlar açacaq və gələcəkdə region ölkələri arasında iqtisadi əməkdaşlığı genişləndirəcək. Həmin yoldan Azərbaycan, Türkiyə, Rusiya, Ermənistan, həmçinin İran istifadə edəcək. Bununla yanaşı, Naxçıvan Muxtar Respublikasında dəmir yolunun bərpası və müasirləşdirilməsi istiqamətində də lazımi işlər görüləcək.

Məlumdur ki, azad edilmiş ərazilərin torpağı kənd təsərrüfatı üçün yararlıdır. Amma burada əkinçiliyin inkişafı və məhsuldarlığın artırılması üçün yeni suvarma sistemlərinə ehtiyac var. Odur ki, dövlət başçısının göstərişi ilə artıq bu ərazilərdə müasir suvarma sistemlərinin yaradılması üçün hazırlıq işləri görülür.

Qarabağda elektrik enerjisi sistemi də yenidən qurulacaq. İşğaldan azad edilmiş rayonlarda həm ənənəvi, bəm bərpaolunan enerji növündən istifadə olunacaq.

Düşmən tərəfindən dağıdılmış şəhər, qəsəbə və kəndlərin bərpası indi əsas məsələdir. Buraya köçəcək insanlar üçün hər cür şəraitin yaradılması diqqət mərkəzindədir. Həmin məqsədlə şəhərsalma qaydalarının tələblərinə uyğun yeni yaşayış məntəqələrinin tikintisi üçün layihələndirmə sənədləri hazırlanır. Dövlət başçısı dəfələrlə çıxışlarında qeyd edib ki, buraya köçəcək insanlar üçün əvvəlkindən də yaxşı şərait yaradılmalıdır.

Ötən ilin yekunlarına həsr olunmuş müşavirədə Prezident İlham Əliyev işğaldan azad edilmiş ərazilərdə həyata keçiriləcək geniş quruculuq-abadlıq işləri barədə demişdir: "Bizim planlarımız böyükdür. Müharibə cəmi iki aya yaxındır ki, başa çatıb. Amma görün nə qədər böyük işlər görülüb. Bərpa işləri artıq başlanıb və bu onu göstərir ki, bizim sözümüzlə əməlimiz arasında bu dəfə də heç bir fərq yoxdur. Biz demişdik ki, torpaqlar işğaldan azad olunandan sonra bu torpaqları tezliklə bərpa edəcəyik. Mən bu yaxınlarda demişdim ki, biz Qarabağ bölgəsində cənnət yaradacağıq və sözümdə dururam. Bizim hamımızdan asılıdır ki, bu sözlər yerinə yetirilsin".

2021-ci il bu baxımdan əlamətdar olmalıdır. Məhz bu il Azərbaycan xalqı və bütün dünya görəcək ki, bizim niyyətimiz həyatda öz əksini tapır, planlarımız həyatda gerçəkləşir.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

# 44 günlük müharibə Ermənistana baha başa gəldi

*Əvvəli 1-ci səh.*

Perspektivi olmayan Ermənistanda insanlar çıxılmaz vəziyyətdə qalıblar. İldən-ilə hökumətin xarici borcları da artır. Hakimiyyət xərclərini ört-basdır etmək, büdcədəki kəsirin qarşısını almaq üçün yeni kreditlər almaq niyyətindədir. Bununla da Ermənistanın dövlət borcu 9 milyard dollara çata bilər".

ABŞ-ın "Eurasianet.org" nəşrinin Cənubi Qafqaz və Mərkəzi Asiya redaktorları Piter Leonardın və Coşua Kuçeranın 2021-ci ilə dair siyasi proqnozlar barədə məqalələrində qeyd olunur ki, 2021-ci il üçün ən bədbin proqnozlar Ermənistana aiddir. Məqalədə yazılır ki, yeni il siyasi münasibətlərdə dönüş dövrü olacaq: "Əgər baş nazir Nikol Paşinyan Azərbaycana məğlub olandan sonra öz postunu qoruyub saxlasa, bu əsl möcüzə olardı. Lakin onun gedişi də siyasi qeyri-müəyyənliyə gətirib çıxaracaq. Əgər Paşinyan hakimiyyətdən gedəcəksə, 2018-ci il məxməri inqilabının dəyərlərinin duruş gətirməsi sual altında qalacaq. Gözlənilir ki, 2021-ci il Ermənistanda siyasi çaxnaşmalarla dolu il olacaq".

Proqnozlarda qeyd olunur ki, Dağlıq Qarabağda yaşayan ermənilər üçün də dolaşıq zaman yetişib. Müharibə nəticəsində onların əldə saxladıqları ərazi kiçilib, azərbaycanlılar isə xeyli yaxınlaşıb. "Rusiya sülhməramlıları hələlik təhlükəsizliyi təmin edir, amma ermənilər düşünməkdə davam edəcəklərmi ki, Qarabağda uzunmüddətli perspektivdə qalmağa dəyərmi? Və ya onlar hesab edəcəklər ki, Qarabağda sayılı günləri qalıb və çemodanları hazır vəziyyətdə oturacaqlar? Ona görə də 2021-ci ildə biz Qarabağın nə dərəcədə həyat qabiliyyətli olduğu barədə daha dəqiq təsəvvür əldə edəcəyik", - deyə müəlliflər qeyd edirlər.

Ermənistanda sosial-iqtisadi problemlər ucbatından miqrasiya tempi artmaqdadır. "İravnuk" qəzeti yazır ki, ölkənin Kotayk vilayətində bu mənzərəni daha aydın müşahidə etmək olar. On il əvvəl üç minə yaxın sakini olan Alaparas kəndində yaşayanların sayı indi heç 400-ə çatmır. Ermənistanın digər əyalətlərində olduğu kimi, burada da vəziyyət ürəkaçan deyil. Ən maraqlısı da odur ki, kəndin küçələrindən birinə "Xoşbəxtlik" adı verilib. Sakinlər hər dəfə bu adı görəndə özlərini təhqir olunmuş hesab edirlər.

Nəşr yazır ki, əslində "Xoşbəxtlik" küçəsində yaşayanlar bədbəxtdirlər. Onların dolanışıqla bağlı problemləri var. Küçənin adı ilə yaşadıqları həyat tərs mütənasibdir. Bu ölkədə onsuz da xoşbəxt insanlar azdır. Kəndin təkcə yollarına baxmaq kifayətdir ki, burada əhalinin necə yaşadığını görəsən. Ona görə də doğulduqları yerdə özlərini bədbəxt hesab edən insanlar xoşbəxtliyi Ermənistanda deyil, xaricdə axtarırlar.

Müharibədəki məğlubiyyətdən sonra Ermənistan hələ də özünə gələ bilmir. Ağır sosial-iqtisadi problemlər məngənəsində boğulan ölkə sonu görünməyən tənəzzül dövrünü yaşayır. Siyasi ziddiyyətlər paralel şəkildə digər sferalardakı mövcud problemləri də dərinləşdirib. Ermənistanda iqtisadiyyat faktiki olaraq iflic olub, əhalinin səfaləti artıb.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# Azərbaycan mədəniyyətinin paytaxtı

## İlham Əliyev Şuşanın tarixi kimliyini bir daha özünə qaytardı




*Əvvəli 1-ci səh.*

Noyabrın 8-də Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin Şəhidlər xiyabanından bəyan etdiyi bu sözlər xalqımızın 28 illik Qarabağ yarasına məlhəm oldu, əvvəlki sevinclərimizə sevinc qatdı, xoşbəxtliyimizi bütövləşdirdi. Elə dövlət başçısı özü də atası, Ümummilli Lider Heydər Əliyevin Şuşanın işğaldan azad edilməsilə bağlı vəsiyyətini yerinə yetirdiyi üçün özünü xoşbəxt hiss etdiyini bildirdi.

Ulu Öndər Heydər Əliyev Azərbaycanın qədim mədəniyyət mərkəzi olan Şuşa şəhərinə böyük qayğı göstərərək onun inkişafına çalışırdı. Ulu Öndər Şuşaya adi bir şəhər deyil, zəngin tarixi abidə, Azərbaycan xalqının qəhrəmanlıq rəmzi kimi baxırdı. 1970-ci illərin ikinci yarısında Heydər Əliyevin bilavasitə təşəbbüsü və rəhbərliyi ilə Şuşanın inkişafı məqsədilə bir neçə xüsusi qərar qəbul edilmişdi.

Ümummilli Lider Heydər Əliyev Şuşanın Azərbaycan üçün müstəsna əhəmiyyətini yüksək qiymətləndirərək bildirmişdi ki, Şuşasız Qarabağ, Qarabağsız isə Azərbaycan yoxdur. Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirərək Azərbaycanın milli və dövlətçilik maraqlarını daim uca tutan Prezident İlham Əliyev də Vətən savaşı zamanı müsahibələrinin birində "Şuşasız bizim işimiz yarımçıq olar" demişdi. Prezident İlham Əliyev bu vədini də yerinə yetirdi. Və xalqımızın tarixində, mədəniyyətində, qəlbində xüsusi yeri olan, Qarabağın tacı sayılan Şuşa şəhərinin işğaldan azad edildiyi günün - 8 Noyabrın Azərbaycanda Zəfər günü kimi təsis edilməsi haqqında sərəncam imzaladı. Bu qərar bütün ölkədə sevinclə qarşılandı.

Yanvarın 5-də isə Prezident İlham Əliyev Şuşa ilə bağlı növbəti mühüm qərarını açıqladı. Anar Kərimovu mədəniyyət naziri təyin olunması ilə əlaqədar qəbul edərkən çıxışında Şuşa şəhərini Azərbaycan mədəniyyətinin paytaxtı elan etdi. Ölkə rəhbəri bu qərarı ilə Şuşaya xüsusi önəm verdiyini növbəti dəfə nümayiş etdirdi: "Mən Şuşa şəhərini Azərbaycan mədəniyyətinin paytaxtı elan edirəm. Şuşa şəhəri buna layiqdir. Hesab edirəm ki, nəinki Azərbaycanın, bölgənin mədəni paytaxtı sayıla bilər. Şuşanın mədəni həyatı zəngin olmalıdır".

Qarabağın incisi, Azərbaycanın mədəniyyət beşiyi olan Şuşa ölkəmizin qədim tarixini özündə yaşadır. Bu şəhər milli mədəniyyətimizin mərkəzi, poeziyamızın və musiqimizin beşiyidir. Əbəs yerə Şuşanı Qarabağın döyünən qəlbi adlandırmırlar. Milli memarlıq üslubu ilə seçilən, orta əsrlər şəhərsalma sənətinin qiymətli abidəsi adlandırılan Şuşa şərqlilərə məxsus arxitekturası ilə fərqlənib. Azərbaycanın alınmaz qalası, mədəniyyət məbədi olan bu qədim şəhər özü boyda tarixi abidədir. Hər biri əvəzsiz sənət nümunəsi olan Xan, Qaxal mağaraları, Şuşa qalası, Xurşidbanu Natəvanın, artilleriya generalı Mehmandarovun, şair-rəssam Mir Möhsün Nəvvabın ev-muzeyləri, İbrahim xanın və onun qızı Qara Böyükxanımın qəsrləri, "Gəncə darvazaları", Gövhər ağa məscidi, əsas ticarət mərkəzi olan "Rastabazar", möhtəşəm qala divarları, memarlıq uslubu ilə inşa olunan digər tikililər şəhərə gələn qonaqları valeh edirdi. Dəniz səviyyəsindən 1403 metr hündürlükdə salınan bu səhər Turşsu mədən suyu ilə də məşhur olub, kurort kimi qonaqların ən çox istirahət və müalicə olunduqları məkana çevrilib.

Şuşa həm də bir çox görkəmli sənətkarların, musiqiçi, memar, rəssam və ədiblərin, dünya mədəniyyət xəzinəsinə böyük töhfələr vermiş şəxsiyyətlərin yetişdiyi bir yerdir. Qarabağın bu dilbər guşəsi Azərbaycan tarixinə Qasım bəy Zakir, Xurşidbanu Natəvan, Mir Möhsün Nəvvab, Nəcəf bəy Vəzirov, Əbdürrəhim bəy Haqverdiyev, Yusif Vəzir Çəmənzəminli, Firudin bəy Köçərli, Haşım bəy Vəzirov, Əhməd bəy Ağaoğlu kimi şəxsiyyətlər bəxş edib.

"Şərqin konservatoriyası", muğamımızın beşiyi adlanan bu şəhər Cabbar Qaryağdıoğlu, Qurban Pirimov, Üzeyir Hacıbəyli, Bülbül, Seyid Şuşinski, Xan Şuşinski, Rəşid Behbudov, Niyazi, Fikrət Əmirov, Süleyman Ələsgərov kimi incəsənət xadimlərinin vətəni olub. Məşhur müğənniləri dinləmək və ya ifaçılıq dərsi almaq üçün hər yerdən bura musiqi həvəskarları axışıb gəlirdilər. Lakin bu şəhər təkcə musiqiçiləri ilə şöhrət qazanmamışdır. Əsrarəngiz təbiət amili, saf, dupduru bulaqlar bu yerlərin şöhrətini daha da artırırdı. Bu diyarın ən məşhur bulağı olan İsa bulağını isə çoxları Şuşanın rəmzi hesab edirlər.

Xarı bülbülün vətəni olan Şuşa bütün gözəlliyi ilə fərqləndiyindən tarixboyu yağıların göz dikdiyi məkana çevrilib.

1992-ci ildə Şuşanın ermənilər tərəfindən işğalı nəticəsində azərbaycanlıların tarixi izlərini silmək məqsədilə vandallar 600-ə yaxın tarixi memarlıq abidəsini, o cümlədən Molla Pənah Vaqifin məqbərəsini dağıdıb, 7 məktəbəqədər uşaq müəssisəsini, 22 ümumtəhsil məktəbini, 8 mədəniyyət evini, 22 klubu, 31 kitabxananı, 2 kinoteatrı, 8 muzeyi, o cümlədən Şuşa Tarix Muzeyini, Azərbaycan Xalça Muzeyinin filialı və xalq tətbiqi sənəti muzeyini, Dövlət Qarabağ Tarixi Muzeyini, Qafqazda yeganə Şərq musiqi alətləri fabrikini dağıdıb, nadir sənət incilərini talayıb və məhv ediblər. Şəhərin Tarix Muzeyinin 5 minədək əşyası, Dövlət Qarabağ Tarixi Muzeyinin 1000-dək əşyası, peşəkar Azərbaycan musiqisinin banisi, bəstəkar Üzeyir Hacıbəylinin, müğənni Bülbülün, musiqiçi və rəssam Mir Möhsün Nəvvabın xatirə muzeylərinin fondları qarət edilib.

28 ildən sonra Azərbaycanın ictimai-siyasi həyatında mühüm xidmətləri olan bir sıra görkəmli xadimlərin vətəni, eləcə də tarixi mədəniyyət mərkəzi və Qarabağın baş tacı olan Şuşa şəhəri işğaldan azad edildi. Prezident İlham Əliyev azadlığına qovuşan, 270 illik tarixi olan Şuşa şəhərini yenidən bərpa edir, dirçəldir, əvvəlki şöhrətinin qaytarılması üçün yeni dövr başladır.

Prezident İlham Əliyev yanvarın 5-də Anar Kərimovu mədəniyyət naziri təyin olunması ilə əlaqədar videoformatda qəbulu zamanı erməni işğalı dövründə Şuşaya vurulmuş maddi-mənəvi ziyandan bəhs edərkən şəhərin bərpası ilə əlaqədar işlərə artıq start verildiyini və böyük heyətin oraya ezam edildiyini dedi: "Yaşayış fondunun, tarixi abidələrin təftişi aparılmalı, vurulmuş ziyan dəqiq hesablanmalıdır və biz Şuşa şəhərinin restavrasiyasına başlamalıyıq. Ancaq yenə də vaxt itirmədən, ancaq eyni zamanda tələsmədən Şuşanın ilkin siması, tarixi siması bərpa edilməlidir.

O cümlədən Şuşada yerləşən məscidlərimiz əsaslı şəkildə təmir edilməlidir, bərpa olunmalıdır, onların öz siması qaytarılmalıdır".

Dövlət başçısı Şuşada Vaqif poeziya günləri və "Xarı bülbül" festivalının bərpa olunmasının vacibliyini də vurğuladı. Bu fikirlərilə dövlət rəhbəri qədim mədəniyyət mərkəzi olan Şuşa şəhərinin, onun mədəni mərkəzlərinin yenidən qurulması və bərpası ilə bağlı kodeksi də təqdim etmiş oldu.

Şuşanın bərpası, dirçəldilməsi, tarixi simasının qaytarılması Qarabağın döyünən ürəyinin, regionun mədəniyyət mərkəzinin yenidən dirçəldilməsi demək olacaq. Bu həm də milli qürurumuzun, mənliyimizin, mədəniyyətimizin, incəsənətimizin, tariximizin bərpa edilməsi, yenidən yüksəliş mərhələsinə daxil olmasıdır. Bu mənada Prezident İlham Əliyevin Şuşanı Azərbaycan mədəniyyətinin paytaxtı elan etməsi olduqca mühüm qərardır.

Dövlət rəhbəri bu şəhəri mədəniyyətimizin paytaxtı elan etməklə Şuşanın tarixi kimliyini bir daha özünə qaytardı. Bu qədim şəhərimizin dəyərini, qiymətini bütün dünyaya bir daha bəyan edərək mesaj verdi. Dünya Azərbaycanın mədəniyyət paytaxtının öz sahiblərinə qaytarıldıqdan sonra necə möhtəşəm şəkildə dəyişiləcəyini görəcək. Azərbaycan bu torpaqlara yenidən həyat qaytaracaq, dağıdılmış şəhərlərə ruh və can verəcək.

***Xəyalə MURADLI,***
***"Azərbaycan"***

## ŞƏHİDLƏR ölməz, VƏTƏN bölünməz!

# Müqəddəs amal uğrunda canlarından keçənlər unudulmur

Azərbaycanın Vətən müharibəsində parlaq qələbə qazanmasında, torpaqlarımızın işğaldan azad olunmasında şəhidlik zirvəsinə ucalan igidlərimizdən biri də Azər Nazim oğlu Yusiflidir.

1994-cü il mart ayının 28-də Ağstafa rayonunun Böyük Kəsik kəndində anadan olan Azər tam orta təhsilini böyüyüb boya-başa çatdığı Muğanlı kəndində almışdır. Orta məktəbi bitirdikdən sonra - 2012-ci ilin aprelində hərbi xidmətə yollanmış və Ədliyyə Nazirliyinin Penitensiar xidmətində kiçik çavuş rütbəsi ilə xidmət etmişdir.

Həqiqi hərbi xidmətini başa vurduqdan sonra sənədlərini Sərhəd Qoşunlarına təqdim edən Azər arzu etdiyi işə qəbul olunmuşdur. Sərhəd xidmətində fəaliyyətinə Cəlilabad rayon Göytəpə sərhəd dəstəsinin "N" saylı hərbi hissəsində başlayan A.Yusifli xidmətdə fərqləndiyinə görə dəfələrlə fəxri fərman və medallarla mükafatlandırılmışdır.





Sonra hərbi döyüş və idman hazırlığında xidmətlərinə görə öz arzusu ilə Mərdəkanda yerləşən sərhəd qoşunlarına məxsus xüsusi təyinatlı dəstəyə göndərilmişdir. Orada keçirilən döyüş təlimlərində fərqlənən Azər sentyabrın 27-də - Vətən müharibəsi başlayanda torpaqlarımızın azad olunması üçün ön sırada xidmətə yollanmışdır. O, Füzuli, Cəbrayıl, Hadrut, Qubadlı, Zəngilanın azad edilməsində böyük şücaət və qəhrəmanlıq göstərmişdir. Cəbrayıl azad ediləndə Xudafərin körpüsünə, Zəngilan azad ediləndə isə rayon prokurorluğu binasına bayrağımızı məhz Azər sancmışdır. 26 yaşlı igid döyüşçü ümumilikdə 26 ərazidə Azərbaycan bayrağını ucaltmışdır.

Lakin bunacan - müharibənin ilk həftəsində Azər yaralanmış və hospitalda müalicə almalı olmuşdur. Buna baxmayaraq, o, tam sağalmamış döyüş meydanına qayıtmışdır. Daxil olduğu kiçik kəşfiyyat dəstəsi ermənilərin 37 əsgər və zabitini əsir götürmüş, 42 nəfərini isə məhv etmişdir. Lakin həmin döyüşdə Azər düşmənin atdığı qumbaradan ağır yaralanmış və aldığı yaralardan şəhid olmuşdur.

Ölümündən sonra Azər Yusifli Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamları ilə "Vətən müharibəsi qəhrəmanı" adına layiq görülmüş, "Vətən uğrunda" və "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

# Gənclərə örnək ömür

Qarabağın azadlığı uğrunda 44 günlük müharibə ordumuzun parlaq qələbəsi ilə başa çatmışdır. Xalqımız 30 il idi ki, zəfərə aparan bu yolda addım-addım irəliləyirdi. Yurd həsrəti, Qarabağ nisgili belimizi bükmüş, gözümüzü qaraltmışdı. Bəzən adi sözdən uşaq kimi kövrəlir, göz yaşlarımızı saxlaya bilmirdik. Hər il Novruz tonqalları başında əllərimizi göyə qaldırıb dualar edir, Qarabağın işğaldan azad olunmasını Allahdan istəyirdik.





Beləcə ağrılı-acılı, məhrumiyyətlərlə dolu illər bir-birinə calanırdı. Amma bu illər ərzində dövlətimiz son dərəcə təmkinli, məqsədyönlü siyasət yürüdürdü. Qarabağın işğaldan azad edilməsinə hesablanan bu siyasətin mərkəzində ölkənin iqtisadi qüdrətini artırmaq, müasir hərbi texnika və silah-sursatla təchiz edilmiş modern bir ordu yaratmaq dururdu. Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin bu istiqamətdə qəbul etdiyi qərarlar, həyata keçirdiyi məqsədyönlü tədbirlər xalqımızı hər gün Qarabağa, milyonların təşnəsi olduğu parlaq qələbəyə addım-addım yaxınlaşdırırdı. Yeni və müasir hərbi texnikaların alınmasına, ölkədə güclü hərbi-sənaye potensialının yaradılmasına, vətənpərvər peşəkar hərbi kadrlar hazırlanmasına dövlət başçısı səviyyəsində böyük önəm verilirdi.

Ermənistan silahlı qüvvələrinin davamlı təxribatları sentyabrın 27-də Qarabağın azadlığı uğrunda müqəddəs savaşa başlamağımızı labüd etdi. Vətən müharibəsinin ilk günlərindən başlayaraq ordumuz sürətlə irəliləyir, erməni faşistlərinin tapdağında təkcə adları qalmış kəndlərimizi, şəhərlərimizi işğaldan azad edirdi. Düşmənin topdağıtmaz istehkamları müzəffər Ali Baş Komandanın müharibənin simvoluna çevrilmiş dəmir yumruğu, qəhrəman Azərbaycan əsgərinin hünəri qarşısında aciz idi. Yoxsa erməni əsgər və zabitləri hərbi texnikalarını, silah-sursatlarını döyüş meydanında qoyub rüsvaycasına qaçmazdılar.

Ali Baş Komandanın yeni-yeni ərazilərin işğaldan azad edilməsi barədə televiziya vasitəsilə vaxtaşırı verdiyi şad xəbərlər ölkədə qeyri-adi bayram ovqatı yaratmışdı. Belə xəbərlər bir az ara verəndə adamlar darıxır, həyəcanlanırdılar. Beləcə öz ordusuyla nəfəs alan xalq "hər şey cəbhə üçün, hər şey qələbə üçün" şüarını özünün yaşam tərzinə çevirmişdi. Taxıl zəmisində, pambıq tarlasında, fabrik və zavodlarda, emal və istehsal müəssisələrində çalışanlar da özlərini sıradan bir əsgər hesab edirdilər.

İlham Əliyevin qüdrətli sərkərdə bacarığı, xalq-ordu vəhdətinin gücü parlaq qələbəmizi təmin etdi. Bu zəfər bizə doğma Qarabağı qaytardı. Bu zəfər öz vətənində qaçqına, köçkünə çevrilən bir milyon soydaşımızın həsrətinə son qoydu. Bu zəfər xalqımızı doğma yurd yerlərinə qovuşdurdu. Bu zəfərin qüruru müqayisəedilməz dərəcədə çox böyük oldu.

Amma neyləyəsən ki, qələbə qurbansız olmur. Bu parlaq zəfər də sinəsini düşmən gülləsinə sipər edən qəhrəman oğullarımızın hünəri hesabına qazanıldı. İgid övladlarımız şəhid olub əbədiyyətə qovuşdu, yaralanıb, sağlamlığını itirib qazi oldular. Amma onlar bu şərəfli yolu ürəklərinin hökmü ilə seçmişlər, özlərinin vətəndaşlıq borcu bilmişlər. Nə xoş ki, bu gün şəhid ailələrinə də, qazilərə də dövlət və xalq səviyyəsində ali ehtiram və böyük qayğı göstərilir. Əlbəttə, bu, belə də olmalıdır. Heç zaman unutmamalıyıq ki, bizim onlara namus, qeyrət və şərəf borcumuz var. Onlar həyatları bahasına bunu özlərinə haqq ediblər.





Vidadi Xəlilov Göyçay şəhərində ziyalı ailəsində doğulub, boya-başa çatıb. Özünə həyat yolu seçdiyi tarixi dövr ölkəmiz və xalqımız üçün ağrılı bir zaman idi. Qarabağda erməni işğalçılarının yandırdığı ocaq getdikcə alovlanırdı. Onlar qanlı Xocalı faciəsini törətmişdilər. Mənfur düşmən Qarabağda kəndləri, şəhərləri odlara qalayır, dinc əhalini xüsusi amansızlıqla qətlə yetirir, əsir götürürdü. Arxalı və azğın düşmənin qarşısında dayanmağa isə yetərincə gücümüz yox idi. Ovaxtkı rəhbərliyin siyasi səriştəsizliyi, müdafiənin ayrı-ayrı silahlı dəstələrinin iştirakı ilə özfəaliyyət formasında təşkili, vahid komandanlığın və milli birliyin olmaması ölkəmizi başdan-başa xaosa bürümüşdür.

O illərdə püxtələşən, bir vətəndaş kimi formalaşan Vidadi Xəlilov bir zərrə də tərəddüd etmədən hərbçi olacağına qərar verdi. 1999-cu ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə daxil olub 2004-cü ildə oranı bitirərək leytenant rütbəsi aldı. Müxtəlif hərbi hissələrdə, müxtəlif vəzifələrdə çalışdı. Həmişə nümunəvi xidməti, yüksək intizamı ilə seçildi. 24 avqust 2019-cu ildə isə "N" saylı hərbi hissədə döyüş hazırlığı üzrə bölmə rəisi vəzifəsinə təyin olundu.

Vidadi Xəlilovun qəhrəmanlıqlarla dolu şərəfli döyüş yolu Kəlbəcər rayonu ərazisindəki Murovdağ yüksəkliyindən başlayır. Polkovnik-leytenant Vidadi Xəlilov Füzuli, Cəbrayıl, Hadrut, Zəngilan, Qubadlı, Laçın rayonlarının işğaldan azad edilməsi uğrunda gedən döyüşlərdə əsl qəhrəmanlıq nümunəsi göstərmişdir. Qubadlının Muradxanlı, Laçının Güləbird kəndləri istiqamətindəki döyüşlərdə onun rəhbərlik etdiyi dəstə düşmənə ağır zərbələr endirmiş, yüzdən çox erməni əsgər və zabitini məhv etmişdir.

Təəssüf ki, döyüşçü dostlarının "Qubadlı fatehi" adlandırdıqları polkovnik-leytenant oktyabrın 30-da ağır döyüşdə qəhrəmanlıqla həlak oldu. Vətən qarşısındakı borcunu şərəflə yerinə yetirən qəhrəman zabit Prezident İlham Əliyevin sərəncamları ilə ölümündən sonra yüksək mükafatlara - "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə", "Laçının azad olunmasına görə" və "Hərbi xidmətlərinə görə" medalları ilə təltif edildi.

Vidadi şəhid olandan sonra ermənilər sosial şəbəkələrdə "Azərbaycanın alovunu söndürdük" yazılarını sevinclə paylaşırdılar. Döyüşçü yoldaşları da onun ermənilərin başına həqiqətən od yağdırdığını qürurla xatırlayırlar.

Heç şübhəsiz, vətənin azadlığı uğrunda şirin canına qıyan oğulların hər biri bizim üçün əzizdir, müqəddəsdir, unudulmazdır. Cəmi 38 il yaşayan Vidadinin ömür yolu, həyat kredosu müasir Azərbaycan gəncləri üçün örnəkdir, vətəni sevməyin, vətənin bir parçasına çevrilməyin gerçək nümunəsidir.

Onun özündən sonraya qoyduğu bir cüt ciyərparasını, ailəsini ziyarət etməyi özümüzə borc bilib Göyçaya getməyə qərar verdik. Göyçayda soraqlaşıb şəhid polkovnik-leytenantın qayınatası Arzu həkimlə görüşdük. Birlikdə M.Rəsulzadə küçəsindəki 123 nömrəli ünvana getdik. Onu da qeyd edim ki, şəhidin ailəsi bu mənzildə kirayədə yaşayır.

Şəhidin anası Əminə xanımla, həyat yoldaşı Nərminə ilə, qızı Zəhra, oğlu Vaqiflə görüşüb, hal-əhval tutduq. Əlbəttə, onların düşüncələrini bölüşmək maraqlı idi. Həm də müdriklərimiz deyiblər ki, dərdi, qəmi böləndə, paylaşanda yüngülləşir. Elə söhbətimizə də bu baxış bucağından körpü saldıq. Onların dediklərini maraqla, diqqətlə dinlədik.

Şəhid anası Əminə xanım: "Vidadinin dəfnindəki izdihamı görəndə böyük təsəlli tapdım. Oğlum bu gənc yaşında necə böyük el məhəbbəti qazanıbmış. Məni çox sevirdi. Ailəsinə hədsiz dərəcədə bağlıydı. Axırıncı dəfə döyüşə gedəndə dedi ki, ana, şəhid olsam, ağlama. Yəqin qismət beləymiş..."

Həyat yoldaşı Nərminə xanım: "Onun yoxluğuyla barışmaq çox çətindir. Dövlət, qohum-qardaş nə qədər qayğı və diqqət göstərsə də, o boşluğu doldurmaq mümkünsüzdür. Vidadi çox vətənpərvər idi. Geyindiyi zabit mundirindən, ay-ulduzlu paqonlardan qürur duyurdu. Çox ailəcanlı idi. İmkan tapan kimi uşaqları gəzməli, görməli yerlərə, istirahət mərkəzlərinə aparardı. Zəhrayla, Vaqiflə vaxt keçirməkdən xüsusi zövq alardı. Bu mənim taleyimdi, alın yazımdı. İnanın, son dərəcə səmimi deyirəm, zaman geri dönsə, hər şey təzədən başlayası olsa, son aqibətimin yenə gözyaşı olduğunu bilsəm belə tərəddüd etmədən yenə Vidadini seçərdim..."

11 yaşlı qızı Zəhra: "Mən atamla fəxr edirəm. Fəxr edirəm ki, qəhrəman qızıyam. Atam hər dəfə evə gələndə elə bil ailəmizdə toy-bayram olurdu. O, bizim sevgi payımız idi. Heyif, tez getdi. Mən inanıram ki, onun şərəfli adı hər zaman başımızın üstündə bir çətir olacaq. Atamın arzusuydu ki, mən həkim olum. Dərs əlaçısıyam. Mütləq həkim olub atamın ruhunu şad edəcəyəm. Çalışacağam ki, atama layiq övlad olum".

7 yaşlı oğlu Vaqif: "Mən də atam kimi komandir olub düşmənlərimizi məhv edəcəm".

Cəmi 38 ilə sığan şərəfli bir ömür yaşadı Vidadi. Ondan bizə, doğmalarına bir ömürlük xatirələr qaldı. Yaddan çıxması, unudulması mümkünsüz olan şirin xatirələr... Şəhidlər ölmür axı. O, hər gecə balalarıyla qol-boyun yatır, hər səhər onlarla oyanıb yeni günə başlayır.

Sən həmişə bizimləsən, vətənin qəhrəman oğlu!

***Lazım QULİYEV,***
***"Azərbaycan"***

# Ömrünü elmə və təhsilə həsr edən alim

İnsan ömrü cəmiyyətə, elmə, təhsilə, xeyirxah əməllərə həsr ediləndə daha mənalı və qürurlu olur. Çünki xalq, vətən üçün yaşanan həyat əsl insan ömrüdür. Yorulmaz tədqiqatçı, xeyirxah insan, yenilikçi alim İbrahim Cəfərov da belə insanlardandır.

Tanınmış ictimai xadim, görkəmli fitopatoloq alim, dəyərli pedaqoq, Azərbaycan Dövlət Aqrar Universitetinin (ADAU) rektoru, Milli Elmlər Akademiyasının müxbir üzvü, professor İbrahim Cəfərovun həyatı, fəaliyyəti xalqına, vətəninə xidmətə həsr olunmuşdur. Dəyərli alimin 65-ci doğum günündə onun həyat və fəaliyyətinin bəzi məqamlarına nəzər salaq.



İbrahim Cəfərov 1956-cı il yanvarın 20-də qədim və zəngin tarixi olan Naxçıvan Muxtar Respublikasının Şərur rayonu Düdəngə kəndində doğulmuşdur. 1979-cu ildə Azərbaycan Kənd Təsərrüfatı İnstitutunda dinləyici, 1980-1985-ci illərdə həmin institutun tələbəsi olmuşdur. İnstitutun Bitki mühafizəsi fakültəsini fərqlənmə diplomu ilə bitirən İbrahim Cəfərov 1985-1988-ci illərdə K.A.Timiryazev adına Moskva Kənd Təsərrüfatı Akademiyası Fitopatologiya kafedrasının əyani aspirantı olmuş, 1989-cu ildə namizədlik, 2006-cı ildə "Azərbaycanın çəyirdəkli meyvə bitkilərinin mikobiotası (növ tərkibi, törədicilərin biologiyası, zərərlilik, mühafizə tədbirləri)" mövzusunda doktorluq dissertasiyasını müdafiə etmişdir. 2010-cu ildən professor olan İ.Cəfərovun həyatı Azərbaycan elminin inkişafına, müstəqilliyimizin və dövlətçiliyimizin möhkəmlənməsinə həsr olunmuşdur.

2014-cü ildə AMEA-nın müxbir üzvü seçilən alim elmin bu mərtəbəsinə pillə-pillə qalxmışdır. O, Azərbaycan Kənd Təsərrüfatı İnstitutunun Fitopatologiya və bitkilərin immuniteti kafedrasında assistent (1989), dosent (1994), professor (2011) kimi fəaliyyət göstərmiş, Azərbaycan Kənd Təsərrüfatı Akademiyasının 1993-cü ildən 2002-ci ilədək Meyvə-tərəvəzçilik və üzümçülük, sonra isə Aqronomluq və torpaqşünaslıq fakültələrinin dekanı, Azərbaycan Dövlət Aqrar Universitetinin tədris işləri üzrə prorektoru (2009-2013) vəzifələrində çalışmışdır. Azərbaycan Respublikası Prezidentinin 25 iyul 2013-cü il tarixli sərəncamı ilə professor İbrahim Cəfərov Azərbaycan Dövlət Aqrar Universitetinin rektoru təyin edilmişdir.

Görkəmli alim həm Azərbaycanın, həm də xarici ölkələrin elmi qurumlarının üzvüdür. O, 2008-ci ildə Azərbaycan Elmi-Tədqiqat Əkinçilik İnstitutunun nəzdində fəaliyyət göstərən Müdafiə Şurasının həmsədri, 2015-ci ildən Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Dövlət Aqrar Universitetinin nəzdində fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunan dissertasiyaların müdafiəsini keçirən dissertasiya şurasının sədri təyin edilmişdir.

Professor İbrahim Cəfərov fitopatologiya sahəsində işlərin beynəlxalq səviyyəyə çatdırılması və fəaliyyət dairəsinin genişləndirilməsi üçün bir çox işlər görmüşdür. Alimin elmi tədqiqatlarının nəticələri Azərbaycanda və xaricdə nəşr olunan 150-dən çox elmi əsərdə, o cümlədən dərsliklərdə, dərs vəsaitləri, fitopatologiya fənninin öyrənilməsinə dair metodik tövsiyələrdə öz əksini tapmışdır. İbrahim Cəfərovun yüksəkixtisaslı elmi kadrların hazırlanması sahəsində də xidmətləri olmuşdur. Onun elmi rəhbərliyi ilə 5 fəlsəfə doktoru dissertasiya işi müdafiə edilmişdir.

Alim keçən əsrin 80-ci illərinin sonunda Naxçıvan Muxtar Respublikası şəraitində üzüm bitkisinin əsas xəstəliklərini tədqiq etmiş, mildyu və oidium kimi təhlükəli xəstəliklərə qarşı mübarizə tədbirləri sistemini bioloji cəhətdən əsaslandırmış, müxtəlif üsulların kombinasiyasında inteqrir mübarizə üsulunun elementlərini işləmişdir. Onun tərəfindən Azərbaycanın müxtəlif bölgələrində aparılan bioloji müayinələr, bitki xəstəlik törədicilərinin növ tərkibinin öyrənilməsi, zərərli patogen növlərinin aşkar olunması biologiya və kənd təsərrüfatı elmi üçün fundamental və praktik əhəmiyyət kəsb etmişdir.

Professor bitki mühafizəsi sahəsində, xüsusilə üzüm, çəyirdəkli meyvə bitkiləri və şəkər çuğundurunun mikobiotasını öyrənmiş, əsas xəstəliklərə qarşı mübarizə tədbirlərini işləmişdir. İbrahim Cəfərov tərəfindən həmçinin çəyirdəkli meyvə bitkilərində ən təhlükəli xəstəliklərdən hesab edilən klasterosporioz və ya deşikli ləkəlik, sitosporoz, monilioz və ya boz meyvə çürüməsi, kokkomikoz, unlu şeh və deformasiya mənşəli bir sıra xəstəliklərin bioloji inkişaf xüsusiyyətləri tədqiq edilmiş və onun əsasında mübarizə tədbirləri işlənib hazırlanmışdır.

İbrahim Cəfərov tədqiqatçı alim olmaqla bərabər, həm də elmi işləri tədrislə sıx əlaqələnən bacarıqlı müəllimdir. Professorun 30 ildən çox olan pedaqoji fəaliyyətinə "Fitopatogen göbələklər kənd təsərrüfatı bitkilərinin xəstəlik törədiciləridir", "Buğda bitkisinin xəstəlikləri və onlara qarşı mübarizə tədbirləri", "Tağlı bitkilərin xəstəlikləri və onlara qarşı mübarizə tədbirləri", "Açıq və örtülü qruntda becərilən pomidor, bibər bitkilərinin xəstəlikləri və onlarla mübarizə", "Üzüm və çiyələk bitkisinin xəstəlikləri, onlara qarşı mübarizənin prinsipləri", "Bitki xəstəliklərinin müqayisəli təhlili", "Sitrus və subtropik bitkilərin əsas xəstəlikləri, onlarla mübarizə", "Dənli-paxlalı bitkilərin xəstəlikləri, onlarla mübarizə", "Pambıq və günəbaxan bitkilərinin əsas xəstəlikləri, onlarla mübarizə", "Şəkər çuğunduru və kələm bitkilərinin xəstəlikləri, onlara qarşı mübarizə", "Fındıq və digər qərzəkli meyvə bitkilərinin əsas xəstəlikləri, onlarla mübarizə" və s. pedaqoji ustalıqla tədris edilən fənlər daxildir.

Bu gün İbrahim Cəfərovun fəaliyyətinin ən önəmli hissəsi Azərbaycan Dövlət Aqrar Universiteti ilə bağlıdır. Azərbaycan elmində, ictimai fikrində öz yeri, öz sözü olan alimin ADAU-nun inkişafında, ölkəmizdə və dünyada tanınmasında böyük zəhməti var. İndi onun rektoru olduğu universitetdə tələbələrin innovativ ideyalarının dəstəklənməsi üçün hərtərəfli şərait mövcuddur. Yaradılmış yeni təsisatlar, o cümlədən Aqrobiznes inkubasiya mərkəzi, aqrokimya, toxumçuluq, qapalı və açıq balıqyetişdirmə, kənd təsərrüfatı maşınlarının intellektual idarəedilməsi laboratoriyaları, quşçuluq, bildirçin və süni mayalanma tədris mərkəzləri, maşın-traktor parkı, heyvandarlıq kompleksi, bitki və baytarlıq klinikaları, patoloji anatomiya muzeyi-auditoriyası tələbələrin innovativ ideyalarının, startap layihələrinin həyata keçirilməsinə şərait yaradır.

Ömrünü elmə, təhsilə həsr edən, elmi və ictimai mühitdə adı hörmətlə çəkilən, peşəkarlığı və qayğıkeşliyi ilə seçilən İbrahim Cəfərov yenilikçi, daim tələbələrin yanında olan, onların qayğılarını çəkən, problemlərini həll edən bir insandır. O həm rektor, həm də müəllim kimi istedadlı tələbələrə hər zaman dəstək verir, köməyini əsirgəmir. Məhz buna görə də professor İbrahim Cəfərov 176 min istifadəçi arasında keçirilən "2018-ci ilin ən yaxşı rektoru" adlı sosial tələbə sorğusunda səslərin 53 faizini toplayaraq qalib olmuşdur. Dəyərli alim sözün həqiqi mənasında tələbələri üçün yaşayan, çalışan rektordur. Professorun uğurlu rəhbərliyi sayəsində Azərbaycan Dövlət Aqrar Universitetində keyfiyyətli və şəffaf təhsil imkanları, tələbəyönümlü tədbirlər, təqaüdlər, beynəlxalq mübadilə proqramlarında iştirak, tələbələrin sosial-məişət şəraitinin müasir tələblərə cavab verməsi, valideyn-universitet əlaqələrinin inkişafı, aqrar sahədə uğurlu karyera imkanları təmin edilmişdir.

Alimin gərgin və səmərəli əməyi dövlət tərəfindən layiqincə qiymətləndirilmişdir. Alim Prezident İlham Əliyevin 7 noyabr 2016-cı il tarixli sərəncamı ilə kənd təsərrüfatının inkişafında xidmətlərinə və dövlət qulluğunda səmərəli fəaliyyətinə görə 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilmişdir. İbrahim Cəfərov həmçinin 2016-cı ildə Qazaxstan Milli Aqrar Universitetinin fəxri professoru, 2018-ci ildə Moldova Dövlət Aqrar Universitetinin fəxri doktoru adlarına layiq görülmüşdür.

***Qərib MƏMMƏDOV,***
***AMEA Torpaqşünaslıq və Aqrokimya İnstitutunun direktoru, akademik***

# Qazaxda su və kanalizasiya sistemi yenidən qurulur

Son illər ölkənin bütün bölgələrində, o cümlədən Qazaxda genişmiqyaslı abadlıq və quruculuq işləri görülüb. Bunun nəticəsində rayonda elə bir sahə yoxdur ki, orada hansısa yenilik olmasın.





Salınan abad yollar, çoxmənzilli yaşayış binalarında aparılan təmir işləri, yeni məktəb binalarının, uşaq bağçalarının tikilməsi, əsaslı təmiri və s. Qazaxı bölgənin nümunəvi rayonuna çevirib. Bununla belə, rayonda tikinti, quruculuq, abadlıq işləri səngimir. İlin əvvəlindən götürülən start deməyə əsas verir ki, 2021-ci il də Qazax üçün bu sahədə düşərli olacaq.

Artıq bir neçə ildir ki, "Azərsu" Açıq Səhmdar Cəmiyyəti tərəfindən Qazax şəhərində içməli su və kanalizasiya sistemi yenidən qurulur. Artıq şəhərin bir çox ərazilərində iş başa çatmışdır. Onu da qeyd edək ki, su və kanalizasiya xətlərinin çəkilişi yekunlaşan ərazilər abadlaşdırılır, prospekt və küçələr asfaltlanır, səkilərə yeni tamet, bardür düzülür, qaz, elektrik, rabitə xətləri səliqəyə salınır. Abadlıqdan söz düşmüşkən onu da bildirək ki, rayon mərkəzindəki çoxmənzilli yaşayış binalarının ərazilərində "Abad məhəllə"lər yaradılır.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

# Sumqayıtda yeni stadionun inşası bu il yekunlaşacaq

Sumqayıtda idmana maraq böyükdür. 72-ci ilini yaşayan şəhərdə minlərlə idmançı yetişmiş, onların bəziləri dünya və Avropa çempionatlarının qalibi olmuş, mötəbər yarışlardan vətənə medallarla dönmüşlər.





Şəhərin idman həyatında xüsusi rola malik olan yerlərdən biri də 60 il əvvəl istifadəyə verilən stadion idi. İki-üç min azarkeş üçün hesablanan Mehdi Hüseynzadə adına Sumqayıt stadionu artıq müasir tələblərə cavab vermirdi və azarkeşlərin çoxu yarışları yer darısqallığından canlı izləyə bilmirdi. Dörd tərəfi açıq olan stadion əhəmiyyətli futbol yarışlarını keçirən məkana da qətiyyən bənzəmirdi. Bir sözlə, yeni stadionun tikintisinə ehtiyac vardı.

Hazırda köhnə stadionun yerləşdiyi ərazidə yenisi inşa edilir. Tikintiyə 2019-cu ilin əvvəlindən başlanılıb. Bu məqsədlə Prezidentin Ehtiyat Fondundan Sumqayıt Şəhər İcra Hakimiyyətinə ilkin olaraq 5 milyon manat vəsait ayrılıb.

Artıq stadionun tribunalarının inşası başa çatmaq üzrədir. Ümumiyyətlə, tikinti işləri qrafikə uyğun həyata keçirilir. Material təminatında da problem yoxdur. Onu da qeyd edək ki, yeni arena beynəlxalq standartlara uyğun inşa edilir ki, bu da stadionda ölkə və beynəlxalq əhəmiyyətli oyunların keçirilməsinə imkan verəcək.

Stadionun yeni quruluşu da maraqlıdır. Belə ki, stadionun qarşısında xüsusi materialdan hazırlanmış iki futbolçunun mücadilə formatlı heykəl-hərəkətli fəvvarə kompleksi də quraşdırılacaq. Bu fəvvarələr dünya futbolunda məşhur "Braziliya dalğası" rolunu oynayacaq. Dünya analoji tikililərində yenilik olacaq Sumqayıt stadionunun yeni dizaynı modern üslub kimi həm də şəhər memarlığına böyük töhfə verəcək. Əvvəl stadionların inşasında eksteryer tərtibata bir o qədər diqqət yetirilmirdisə, indi belə deyil. İdman arenası da şəhərin memarlıq üslubuna həm uyğun gəlməli, həm də yenilik gətirməlidir. Bu baxımdan Sumqayıtın incə milli üslublu yeni stadionu estetik cəhətdən azarkeşlərə, şəhər əhalisinə və turistlərə böyük zövq verəcək.

Stadionun tikintisində üzlük materiallarından və daş üzlüklərdən istifadə olunmur. Onları paslanmaz polad əvəzləyir ki, bu da tikiliyə fərqli görünüş verir. Ərazidə müxtəlif idmançıların heykəlləri də qoyulacaq. Stadion təkcə futbol xidməti üçün nəzərdə tutulmur. Bununla stadion olimpik statusda olacaq.

Sumqayıtlıların açılışını səbirsizliklə gözlədikləri stadionun bu il istifadəyə verilməsi nəzərdə tutulur.

***Akif ƏLİYEV,***
***"Azərbaycan"***

# Keçmişi yalana, bugünü dalana dirənən xalqın gələcəyi yoxdur

Prezident İlham Əliyevin Anar Kərimovun mədəniyyət naziri təyin olunması ilə bağlı videoformatda qəbulundakı çıxışı yalnız yeni nazirə yox, həm də bütün ölkə ictimaiyyətinə, regiona və beynəlxalq aləmə ünvanlanan ciddi mesajlardan ibarət siyasi dərs idi.

İndi hamı görür ki, qalib Azərbaycan və məğlub Ermənistan fərqli mövqelərdən çıxış edirlər. Gözlənilməz məğlubiyyətdən şoka düşən işğalçı ölkədə qarşıdurmalar güclənir, məğlub edilən ordu tör-töküntülərini cəmləyərək revanş eşqinə düşür, havadarlar axtarır. Azərbaycan isə can verən düşmənin çabalarına məhəl qoymadan perspektivlərə, yeni quruculuq işlərinə köklənir.

Prezident İlham Əliyev sözügedən çıxışında da təkrarolunmaz mədəni irsimizin zənginliyini qabardaraq onun qorunmasının vacibliyini önə çəkdi. Məlumdur ki, möhtəşəm qələbənin əldə edilməsində hərbi üstünlüklərimizlə yanaşı, xalqımızın iradəsi, milli köklərə bağlılığı, mədəniyyətimizi və milli mənsubiyyətimizi qorumağımız da vacib rol oynadı. Dövlət başçısı həmçinin ana dilimizin dünyada 50 milyondan çox insanın doğma dili olduğunu, onun qorunmasının və inkşaf etdirilməsinin vacibliyini qeyd etdi, bu il Nizaminin 880 illik yubileyinin ölkəmizdə və bütün dünyada geniş qeyd olunacağını diqqətə çatdırdı. Ermənistanda nasist ideologiyası ilə zəhərlənən siyasi elitanın təmsilçiləri birbirini çarmıxa çəkirlər, Azərbaycan isə Nizami, Nəsimi, Füzuli ilə öyünür, yeni hədəflərə köklənir, düşməni normal qonşuluğa dəvət edir. Fərqimiz bundadır.

Dövlət başçısı çıxışında musiqi sənətimizin UNESCO-nun Qeyri-Maddi Mədəni İrs Siyahısına daxil edilməsindən, muğamın milli sərvətimiz olmasından, ölkəmizdə beynəlxalq muğam festivallarının keçirilməsindən və məhz Azərbaycanın muğam sənətinin mərkəzi sayılmasından danışdı: "Bildiyiniz kimi, mənim sərəncamımla bir neçə muğam mərkəzi yaradılmışdır - Bakı şəhərində, Ağdam və Füzuli rayonlarında, digər rayonlarda. İndi isə bu muğam mərkəzləri artıq işğaldan azad edilmiş torpaqlarda da yaradılacaqdır".

Məlumdur ki, 44 günlük müharibədə olduğu kimi, bu gün də Azərbaycan Prezidentinin çıxışları, bəyanatları diqqətlə izlənilir, müxtəlif dövlətlərin KİV-ində geniş şərh edilir. Dost dost kimi, düşmən də düşmən kimi vacib saydığı məqamlara toxunur.

Dövlət başçısı çıxışının əvvəlində bütünlükdə Azərbaycan mədəniyyətinin zəngin çalarlarına toxunmuş, aşıq sənətinin, müxtəlif xalçaçılıq məktəblərinin və zəngin memarlıq nümunələrinin milli-mədəni irsimizin inkişafındakı rolunu vurğulamaqla yanaşı, "qədim keçmiş"i və "mədəniyyət"i ilə öyünən erməni işğalçılarının vandallığını xüsusi qeyd etmişdir: "Amma görün, bizim məscidlərimizi mənfur düşmən nə günə salıb. Altmışdan çox məscid işğal edilmiş və azad edilmiş torpaqlarda dağıdılıb və buna heç kim reaksiya vermir. Heç bir beynəlxalq təşkilat Ermənistanı qınamır. Biz erməni kilsəsini qoruyuruq. Bizim erməni xalqı ilə heç bir problemimiz yoxdur və Azərbaycanda yaşayan ermənilər bizim vətəndaşlarımızdır".

44 günlük müharibənin sonunda Xankəndidə təslim olmamaqdan ötrü şivən qoparan ermənilər indi oralarda guya müdafiə sədləri qurur, səngər qazır, hərdən də partizanlıq edirlər. Onları qınamırıq. Mayaları elə yoğrulub ki, istənilən sülhü savaşa çevirmək üçün dəridən-qabıqdan çıxırlar. Nə etdiklərini, nə qədər gülünc göründüklərini özləri də anlamırlar.

Azərbaycan isə qarşısına məqsəd qoyur ki, dağıdılmış ərazilərdə ilk növbədə mədəniyyət ocaqları bərpa edilsin və Qarabağda yaşamaq istəyən ermənilər də görsünlər ki, 30 ildə Ermənistan onlara nə verdi, bir neçə ilə Azərbaycan nələri verəcək. Prezident İlham Əliyevin tələbi belədir: "Ümumiyyətlə, yarıdağılmış tarixi abidələrimizin bərpasında çox həssas olmalıyıq. Ancaq biz o tarixi abidələrimizin əsl simasını bərpa etməliyik".

Dövlət başçısının Şuşa şəhərini "Azərbaycan mədəniyyətinin paytaxtı" elan etməsi xüsusi əhəmiyyət kəsb edən qərardır. İşğalçı dövlət 30 ildə Şuşanın mahiyyətini və miqyasını dərk etmədi. Paşinyan, Arutunyan burada özlərinə villa tikdirdilər, Topxana meşəsində kef məclisi qurdular. Bununla da sübut etdilər ki, onların Şuşaya və ümumən Qarabağa heç bir bağlılığı yoxdur.

Müharibəni Qələbə ilə başa vuran Ali Baş Komandan müharibə mövzusuna toxunmadan yeni nazirə bunu dedi: "...biz Şuşa şəhərinin restavrasiyasına başlamalıyıq. Ancaq yenə də vaxt itirmədən, eyni zamanda tələsmədən Şuşanın ilkin siması, tarixi siması bərpa edilməlidir".

Ermənilər işğal etdikləri ərazilərdə bütün məscidləri yerlə-yeksən etmişlər, Ağdam məscidində donuz saxlamışlar, cəllad Köçaryan bu məscidin önündə "qalib pozası"nda şəkil çəkdirmişdir. Bundan başqa əllərindən nə gəlirdi ki? Budurmu erməni xalqının qədimliyi, mədəniyyəti? Prezident çıxışında erməni faşizminin bütün bəşəriyyət üçün təhlükə olmasını diqqətdən kənarda qoymadı: "Bizim şəhərlərimiz müharibə dövründə dağıdılmayıb. Müharibə dövründə şəhərləri belə dağıtmaq mümkün deyil. Müharibədən sonra işğal dövründə bütün binaları, bütün yaşayış yerlərini söküblər. Onlar vandallardır, barbarlardır".

Azərbaycan isə gələcəklə bağlı planlar qurur: Şuşada Vaqif poeziya günləri, "Xarı bülbül" festivalı bərpa ediləcək! Özü də bu il. Vaqifin məqbərəsini xarabazarlığa çevirən erməni cəlladlarının əməllərini Azərbaycan Prezidenti belə qiymətləndirdi: "Nə qədər vəhşilik ola bilər? Nə qədər qəddarlıq ola bilər? Özü də Azərbaycan xalqı axı sizə nə edib? Sizə çörək verib. Azərbaycan xalqı sizə nə edib ki, ürəyinizdə bu qədər nifrət olsun? Şəhərləri dağıdırsınız, insanları didərgin salırsınız, tarixi abidələri sökürsünüz, nə məqsəd güdürsünüz? Elə hesab edirlər ki, bizim yaddaşımızdan silinəcək bu vəhşilik? Biz 44 gün müharibə apardıq, Ermənistanı demək olar ki, tamamilə məğlub etdik. İstənilən addım ata bilərdik, istənilən addım! Amma mən demişəm ki, biz mülki əhaliyə qarşı vuruşmuruq. Biz tarixə qarşı vuruşmuruq. Biz dini abidələrə qarşı vuruşmuruq. Onların bir dənə də olsun dini abidəsi dağıdılıb? Yox! Orada insanlar arasında itkilər çox aşağı səviyyədədir. O da təsadüfən baş verib. Görün onlar nə ediblər? Xocalı soyqırımı, məscidlərimizin dağıdılması, şəhərlərimizin dağıdılması".

Dövlət başçısı bu paralelləri aparmaqla beynəlxalq aləmə kimin kim olduğunu anladır: "Bütün qonşulara meydan oxuyurlar. Əsassız iddialar irəli sürürlər, torpaq iddiası, ərazi iddiası. Hər şeyi onlar özününküləşdirmək istəyirlər. Bizim musiqimizi oğurlayırlar. Gedin açın, onların öz musiqisi kimi təqdim etdikləri musiqilərin böyük hissəsinin müəllifi Üzeyir Hacıbəylidir və bizim digər bəstəkarlarımızdır. Bizim mətbəximizi oğurlayırlar. Qonşu xalqların mətbəxini oğurlayırlar. Tarixi abidələri oğurlayırlar. Kilsələri başqa xalqlardan, qonşu xalqlardan oğurlamağa çalışırlar".

Prezident həmçinin ölkə ictimaiyyətinə də, möhtəşəm xalq-iqtidar birliyini şübhə altına almağa cəhd edən qüvvələrə də sözünü birbaşa dedi. Bildirdi ki, Qarabağda islahatlar sürətlə davam edəcək, Füzulidə beynəlxalq aeroport tikiləcək. Şuşaya isə yeni yolun çəkilişinə artıq başlanılıb. Bu yol daha qısa olacaq. Eyni zamanda Şuşaya Xankəndidən, Laçın dəhlizindən gedən yollar da bizim üçün açıqdır: "Biz nə vaxt istəsək oraya getməliyik, gəlməliyik və elə də olacaq".

Azərbaycan Prezidenti çıxışında azad edilmiş torpaqlarda bütün dağıntıların siyahıya alındığını, onları törədənlərin hüquqi müstəvidə məsuliyyətə cəlb ediləcəklərini bildirdi, UNESCO-da Azərbaycanın dünya mədəni irsinə verdiyi töhfələr haqqında kifayət qədər geniş məlumat olduğunu diqqətə çatdırdı: "Biz təkcə Azərbaycanda yox, bəzi ölkələrdə müxtəlif layihələr icra etmişik. O cümlədən həm müsəlman, həm xristian dini abidələrinin bərpasında fəal rol oynamışıq. Azərbaycanda multikultural cəmiyyətin nümunəsi bir çox ölkələr üçün örnək olmalıdır. Bunu mən demirəm, bunu dünya dini liderləri deyirlər. Bakıda səfərdə olan Roma Papası Fransiskin bəyanatlarına fikir versinlər. İslam Əməkdaşlıq Təşkilatının rəhbərlərinin bəyanatlarına fikir versinlər. Bakıda dəfələrlə səfərdə olan digər dini liderlərin, yəhudi, katolik, pravoslav, müsəlman dini rəhbərlərinin çıxışlarına baxsınlar. Kim bizi ittiham edə bilər ki, Azərbaycanda başqa dinlərin abidələri təhlükə altındadır? Naşı siyasətçilər, populistlər, bizim bölgəmizdən xəbəri olmayan, ancaq erməni lobbisinin sifarişini yerinə yetirən, ya da ona çalışan bəzi dırnaqarası siyasətçilər bizə hansısa irad tuta bilərlər. Bu iradların əsası varmı? Yoxdur".

Erməni vandallığına qiymət bütün dünya tərəfindən verilməlidir. Hamı, o cümlədən ermənilərin özləri bilməlidirlər ki, keçmişi uydurulan, bu günü faşist ideologiyasına söykənən xalqın gələcəyi yoxdur.

***Bahadur İMANQULİYEV,***
***"Azərbaycan"***

# Qayğının dəyişməyən ünvanı

Erməni təcavüzünə məruz qalmış ərazilərimizin işğaldan azad edilməsində qəhrəmanlıq nümunələri göstərən şəhidlərin ailələrinə və qazilərə dövlət səviyyəsində göstərilən qayğı davam edir.



Dövlət başçısının tapşırıq və tövsiyələrinə uyğun olaraq, Mingəçevirdə də şəhid və qazi ailələrinin mövcud problemlərinin aradan qaldırılması üçün mütəmadi tədbirlər həyata keçirilir. Şəhər icra hakimiyyətinin başçısı İlham İsmayılov Vətən müharibəsi şəhidlərinin ailələrini və yaralı qaziləri ziyarət edir, onların problem və qayğıları ilə maraqlanır.

Bu günlər "Yaşat" Fondu və şəhər icra hakimiyyətinin nümayəndələri II Qarabağ müharibəsi şəhidlərinin ailə üzvləri ilə görüş keçirmiş, onların sosial ehtiyaclarını, sağlamlıq məsələlərini öyrənmişlər. Artıq şəhər icra hakimiyyəti tərəfindən bu yöndə işlərə başlanılıb. Belə ki, bir şəhid ailəsinin bağ evindəki mənzilinə istilik sistemi çəkilib. 2 qazinin evinə isə istilik sistemi, eləcə də 3 şəhid ailəsinin evinə telefon və internet xəttinin çəkilişi aparılır. Həmçinin bir şəhid ailəsinin suya olan borcu ləğv edilib. Bununla yanaşı, Mingəçevir bağ massivində yaşayan şəhid ailəsinin evinə gedən yol təmir olunur.

Sosial problemi olan şəhid ailələri və qazilər bundan sonra da diqqətdə saxlanılacaq.

***Esmira HİDAYƏTOVA,***
***Mingəçevir şəhəri***

# FHN-in Ağdam rayon Dövlət Yanğından Mühafizə Hissəsinin şəxsi heyəti fəxri fərmanla təltif edilib



Fövqəladə Hallar Nazirliyinin (FHN) Dövlət Yanğından Mühafizə Xidmətinin Ağdam rayon Dövlət Yanğından Mühafizə Hissəsində şəxsi heyətlə görüş keçirilib. Vətən müharibəsi zamanı göstərdikləri xidmətlərə görə yanğınsöndürənlərə fəxri fərman və hədiyyələr təqdim edilib.

AZƏRTAC xəbər verir ki, Fövqəladə Hallar Nazirliyi İşçilərinin Həmkarlar İttifaqı tərəfindən cəbhəboyu zonada xidmət edən FHN əməkdaşları ilə görüşlərə start verilib. Növbəti belə görüş Ağdam rayon Dövlət Yanğından Mühafizə Hissəsində təşkil olunub.

FHN İşçilərinin Həmkarlar İttifaqının sədri Mehman İsmayılovun da iştirak etdiyi görüşdə Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qüdrətli ordumuzun gücü sayəsində qazanılan qələbədən söhbət açılıb. Bildirilib ki, bu qələbə həm də xalq-ordu birliyinin bariz nümunəsi oldu. Dövlət başçısının ətrafında sıx birləşən hər bir qurum, hər bir vətəndaş qələbə və torpaqlarımızın azadlığı uğrunda əlindən gələni əsirgəmədi. Düşmən təxribatının qarşısının alınması məqsədilə başlayan əks-hücum qısa zamanda cəbhədən gələn qələbə xəbərlərinin eşidilməsinə səbəb oldu.

Döyüşlər ərəfəsində mənfur ermənilərin dinc əhaliyə qarşı törətdikləri faktlardan da söhbət açılıb. Bildirilib ki, Ağdam rayonunun ərazisi düşmən atəşinə ən çox məruz qalan ərazilərdən biri oldu. Şanlı Azərbaycan Ordusu qarşısında aciz qalan düşmən birbaşa dinc əhalini hədəf seçirdi. Buna baxmayaraq, hər hansı düşmən əməli sakinlərimizi qorxutmadı. 44 günlük müharibənin sonunda Zəfər yürüşünün qələbə sevincini eşitdik və torpaqlarımız işğaldan azad olundu.

FHN-in Dövlət Yanğından Mühafizə Xidmətinin Ağdam rayon Dövlət Yanğından Mühafizə Hissəsinin rəisi Mehmandar Nəsirli qeyd edib ki, qurumun heyəti Vətən müharibəsində gücləndirilmiş iş rejimində çalışıb. Erməni təxribatı zamanı evlərdə, dövlət əhəmiyyətli obyektlərdə, təsərrüfatlarda partlayış və yanğınlar olurdu və yanğınsöndürənlər dərhal həmin ərazilərə cəlb edilirdi. Şəxsi heyət öz vəzifəsinin öhdəsindən layiqincə gəldi.

"Bu gün də qürurla qalib dövlətin işçiləri kimi xidmətimizi davam etdiririk. Hazırda azad edilən ərazilərdə də bölməmiz fəaliyyətə başlayıb. Bu da bizim üçün böyük fəxrdir" deyə Mehmandar Nəsirli bildirib.

FHN İşçilərinin Həmkarlar İttifaqının sədri Mehman İsmayılov çıxışında deyib ki, nazirliyin bir çox qurumları var və onların vəzifələri fövqəladə vəziyyətlərdə, xüsusi riskli hallarda insanların həyatlarını xilas etməkdən ibarətdir. Dövlət Yanğından Mühafizə Xidmətinin əməkdaşları da bu çətin və şərəfli peşə sahibləri arasında yer alır. Onların Vətən müharibəsində göstərdiyi xidmət təqdirəlayiqdir.

"Elə bu məqsədlə döyüşlər ərəfəsində cəbhəboyu zonada xidməti ilə seçilən əməkdaşlarımızla görüşlərə başlamışıq və bu gün Ağdam rayonunda yanğından mühafizə xidmətinin qəhrəmanları ilə görüşürük. Məlumdur ki, düşmən tərəfindən törədilən təxribatlara daha çox məruz qalan ərazilər arasında Ağdam da yer alır. O çətin günlərdə əməkdaşlarımızın xidmətləri xüsusi qeyd olunmalıdır. Ona görə də əməkdaşlarımızın xidmətlərini dəyərləndirmək üçün belə görüşlər keçiririk" deyə Mehman İsmayılov qeyd edib.

Görüş çərçivəsində Ağdam rayon Dövlət Yanğından Mühafizə Hissəsinin şəxsi heyəti FHN İşçilərinin Həmkarlar İttifaqı tərəfindən fəxri fərmanlar və hədiyyələrlə mükafatlandırılıb.

## Səfərbərlikdən tərxis olunan şəxslərin qəbulu və müraciətlərinə baxılması üzrə komissiyada növbəti müraciətlərə baxılıb

Azərbaycan Respublikası müdafiə nazirinin müvafiq əmri ilə yaradılmış Səfərbərlikdən tərxis edilmiş şəxslərin qəbulu və müraciətlərinə baxılması üzrə komissiyanın fəaliyyəti davam edir.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində fəaliyyət göstərən komissiya tərəfindən üç gün ərzində 782 müraciətə baxılıb.

Füzuli rayonu ərazisində fəaliyyət göstərən komissiyanın səyyar qrupu tərəfindən bugünədək 102 müraciətə baxılıb.

Müraciətlərdə qaldırılan məsələlərin həll olunması üzrə komissiya və səyyar qrup tərəfindən müvafiq tədbirlər görülüb.

## Azad edilmiş ərazilərimizdə dislokasiya olunan bölmələrimizin mühəndis təminatı üzrə tədbirlər görülür

İşğaldan azad edilmiş ərazilərimizdə bölmələrimizin hərtərəfli mühəndis təminatı üzrə tədbirlər icra olunur.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Azərbaycan Ordusunun mühəndis-istehkam bölmələri tərəfindən ərazilərin minalardan və partlamamış döyüş sursatlarından təmizlənməsi işləri aparılır. Avtomobil və döyüş texnikasının kalonlarının təhlükəsiz hərəkəti üçün yollar minalardan təmizlənir, bərpa olunur. Yaşayış məntəqələri və bölmələrimizin yerləşdiyi mövqelər istiqamətində yeni yolların çəkilməsi üzrə fəaliyyətlər icra edilir. Ərazilərdə bugünədək xeyli sayda mina və partlamamış döyüş sursatı toplanıb.

Azad olunmuş ərazilərimizdə mina və partlamamış döyüş sursatının aşkarlanması və zərərsizləşdirilməsi üzrə tədbirlər davam etdirilir.

## Ötən il Müdafiə Nazirliyinin "Qaynar xətt"inə 15 mindən artıq müraciət daxil olub

Müdafiə Nazirliyinə daxil olan müraciətlərin qəbulu, vətəndaşlarla birbaşa ünsiyyətin qurulması və onları maraqlandıran sualların dərhal cavablandırılması məqsədilə yaradılan "Qaynar xətt"ə ötən il 15 min 206 müraciət qeydə alınıb. Bu müraciətlərin 9925-i şifahi cavablandırılıb, 5281-nin həlli ilə bağlı isə nazirliyin müvafiq qurumlarına dərhal sorğular göndərilib.

Bu barədə AZƏRTAC-a Müdafiə Nazirliyinin Mətbuat xidmətindən məlumat verilib. Nazirliyin məlumatında bildirilib ki, təkcə 2020-ci il sentyabrın 27-dən 2021-ci il yanvarın 10-dək vətəndaşlardan 5465 müraciət daxil olub. Həmin müraciətlərin 2269-u şifahi qaydada cavablandırılıb, 3196-sı isə qeydiyyata alınaraq aidiyyəti üzrə araşdırılması və cavablandırılması üçün nazirliyin müvafiq strukturlarına göndərilib.

Qeyd edək ki, Vətən müharibəsi dövründə daxil olan müraciətlər əsasən valideynlərin hərbi xidmətdə olan övladları ilə əlaqə saxlanılması (971 müraciət), şəhid olmuş və itkin düşmüş hərbi qulluqçular haqqında məlumat alınması (742 müraciət), hərbi qulluqçuların ailələrinə yardım edilməsi (449 müraciət) və könüllü döyüşə getmək (386 müraciət) ilə əlaqədar olub.

Ailə-məişət və sosial məsələlərlə bağlı digər müraciətlər də qeydiyyata alınaraq həll olunması üçün nazirliyin müvafiq qurumlarına yönləndirilib.

## Suqovuşanda düşmənin atıb qaçdığı silah-sursat aşkar edilərək götürülüb

İşğaldan azad edilmiş ərazilərdə Ermənistan ordusunun atıb qaçdığı odlu silah-sursatın aşkar olunması istiqamətində tədbirlər davam etdirilir.



Daxili İşlər Nazirliyinin Mətbuat xidmətinin Bərdə regional qrupundan AZƏRTAC-a verilən məlumata görə, Tərtər RPŞ-nin əməkdaşları tərəfindən rayonun Suqovuşan kəndi ərazisində xidmətdə olarkən həmin ərazidən 1 ədəd 60 mm-lik minaatan silahı, həmin silaha məxsus 72 ədəd mərmi, 5 ədəd 30 mm-lik AQS-17 qumbaraatan silahı, dolu sandığı və sursatı ilə birgə 2 ədəd 12.7 mm-lik PKT, 1 ədəd PK pulemyotu, hava hücumundan müdafiə üçün atışa hazır vəziyyətdə "İQLA" raket kompleksi, 1 ədəd "Muxa" markalı RPQ-18 qumbaraatan, 3 ədəd tank əleyhinə RPQ-7 mərmisi, 1 ədəd snayper tüfəngi, 2 qutu 12.7 mm-lik patronlar, 1 ədəd əl radiostansiyası və qidalandırıcısı aşkar edilərək aidiyyəti üzrə təhvil verilib.

## BİLDİRİŞ

"Azərbaycan İnvestisiya Şirkəti" ASC (Şirkət) tərəfindən Neftçala Sənaye Məhəlləsində yerləşən su təmizləyici qurğunun bioloji yolla təmizlənməsi üçün dərman vasitələrinin və qurğuda yaranan nasazlıqların təmiri xidmətlərinin satın alınması məqsədilə keçirilmiş kotirovka sorğusu proseduru başa çatmışdır. Tender komissiyasının 23.12.2020-ci il tarixli qərarına əsasən "Aqualink" Məhdud Məsuliyyətli Cəmiyyəti kotirovka sorğusunun qalibi seçilmişdir.

Qalib şirkətlə 13.01.2021-ci il tarixli müqavilə bağlanmışdır.

***Tender komissiyası***

## Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası akademiyada 24 saat mühafizə xidmətinin təşkili işinin satın alınması üzrə *açıq tender elan edir*

Tender iştirakçılarına təklif edilir ki, **https://www.etender.gov.az/** - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə, texniki imkanlara və təcrübəyə malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**İştirak haqqı: 500.00 (beş yüz) manat**
**Təşkilat: Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası**
**VÖEN: 1500374911**
**H/HESABI: AZ20AIIB38090019440138430118**
**Bankın adı: "KAPİTAL BANK" ASC Gənclik filialı**
**Kod: 200189**
**VÖEN: 9900003611**
**Müxbir hesabı: AZ37NABZ01350100000000001944**
**SWIFT BIK: AIIBAZ2X**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçının bu sahədə fəaliyyətinə dair lisenziyası;*
- *digər sənədlər.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır). Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 05.02.2021-ci il saat 11:00-a qədər, tender təklifi və bank təminatını isə 15.02.2021-ci il saat 11:00-a qədər Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri 16.02.2021-ci il saat 11:00-da açılacaqdır.

**QEYD:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılacaqdır.*

***Tender komissiyası***

## Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi daxili bazar araşdırmasının aparılması xidmətini təkliflər sorğusu üsulu ilə həyata keçirir

Təkliflər 6 (altı) LOT üzrə aparılır:

LOT 1: "Azərbaycan Respublikasında təhlükəli və təhlükəli tibbi tullantıların zərərsizləşdirilməsi" layihəsi üzrə daxili bazar araşdırmasının aparılması xidməti;

LOT 2: "Mühərriksiz kənd təsərrüfatı aqreqatlarının istehsal potensialının öyrənilməsi" layihəsi üzrə daxili bazar araşdırmasının aparılması xidməti;

LOT 3: "Dizayn-Təmir-Tikinti sahəsi" layihəsi üzrə daxili bazar araşdırmasının aparılması xidməti;

LOT 4: "İT-kiber təhlükəsizlik sahəsi" layihəsi üzrə daxili bazar araşdırmasının aparılması xidməti;

LOT 5: "Balıq məhsullarının istehsalı və satışı" layihəsi üzrə daxili bazar araşdırmasının aparılması xidməti;

LOT 6: "Birdəfəlik karton (əsasən stəkanlar və onlar üçün nəzərdə tutulan qapaqlar) istehlak bazarının öyrənilməsi" layihəsi üzrə daxili bazar araşdırmasının aparılması xidməti.

Maraqlanan malgöndərənlər (podratçılar) (+994 55) 200-01-06 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər.

Təkliflər sorğusunda iştirak etmək istəyənlər sənədləri, tender təklifini və təminatını 22.01.2021-ci il saat 16:00-dək Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin Tender komissiyasına təqdim etməlidirlər.

Təkliflər sorğusu prosedurunda təkliflərin açılış tarixi 25.01.2021-ci il saat 16:00-a müəyyən edilmişdir.

Ünvan: AZ 1069, Bakı şəhəri, Mustafa Kamal Atatürk pr., 134.

***Tender komissiyası***

## ABŞ Konqresinin Nümayəndələr Palatası Trampa impiçment elan etdi



ABŞ Konqresinin aşağı palatası - Nümayəndələr Palatası Prezident Donald Trampa qarşı ittihamları təsdiq edib. İmpiçment haqqında sənədə konqresmenlərin əksəriyyəti səs verib.

Beləliklə, Tramp ABŞ tarixində Nümayəndələr Palatasının iki dəfə impiçment elan etdiyi ilk Prezident oldu. İndi sənəd Senata göndəriləcəkdir. Onun yekun təsdiqi üçün 100-dən 67 səs lazımdır, lakin bunun üçün demokratlara respublikaçı senatorların 17 səsi çatışmır.

Xatırladaq ki, Nümayəndələr Palatası tərəfindən 2019-cu ilin dekabrında qəbul edilmiş impiçment haqqında əvvəlki sənəd Senatda dəstək almamışdı.

# Beynəlxalq aləm

## Pandemiyanın ikinci ili daha ağır ola bilər



Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) bədbin proqnozla çıxış edib. Təşkilatın Fövqəladə Hallar proqramının direktoru Maykl Rayan bildirib ki, koronavirus pandemiyasının ikinci ili daha ağır ola bilər.

Rayanın dediyinə görə, son zamanlar daxil olan məlumatlar COVID-19-a yoluxma hallarının yenidən pik nöqtəyə çatdığını göstərir. Yalnız bir həftə ərzində dünyada koronavirusa beş milyona yaxın yeni yoluxma və 85 mindən çox ölüm halı qeydə alınmışdır. Bundan əvvəl ÜST bildirmişdi ki, 2021-ci ildə dünya kollektiv immunlaşmaya nail ola bilməyəcək.

## Aİ kosmik innovasiyalara 300 milyon avro xərcləyəcək



Avropa İnvestisiya Fondu (EIF) və Avropa Komissiyası (AK) Avropa ittifaqının(Aİ) kosmik sənayesinə 300 milyon avro məbləğində investisiyalar barədə birgə bəyanat imzalayıb. İnvestisiyaların məqsədi innovasiyaları dəstəkləməkdir. Bu barədə "Rosbalt" agentliyi xəbər verir.

Brüsseldə keçirilmiş 13-cü Avropa Kosmik konfransında daxili bazar komissarı Tyerri Breton bildirib ki, kosmik texnologiyalar sahəsində kiçik və orta müəssisələrə investisiyalar kosmik sənayenin bərpasının vacib elementidir.

Fondun və AK-ın birgə bəyanatına əsasən, investisiya Orbital Ventures və Primo Space təşkilatlarına yönəldiləcək. Bu qurumlar Aİ-nin dövlət dəstəyi ilə İnnovFin Space Equity Pilot layihəsi üzərində işləyir.

Layihə Avropada 50-yə yaxın kosmik texnika şirkətini dəstəkləməyə yönəlmişdir.

## Dünyada koronavirusdan 600-dən çox jurnalist vəfat edib

Koronavirus pandemiyası başlayandan bəri dünyanın 59 ölkəsində 600-dən çox media işçisi bu xəstəliyin qurbanı olub. Bu barədə Avropa Jurnalistlər Federasiyası məlumat vermişdir.

İtaliyada 40 jurnalistin COVID-19-dan öldüyü təsdiqlənib. Bu, ən böyük rəqəmdir. Sonrakı yerlərdə Türkiyə (17), Ukrayna (14), Böyük Britaniya (13), Rusiya Federasiyası (8), İspaniya (6), Fransa (5) qərarlaşıb. İsveçrə, Avstriya, Almaniya, Bolqarıstan, Belçika və Azərbaycanda koronavirus infeksiyası nəticəsində azı bir ölüm halı qeydə alınıb.

Əlavə edək ki, ötən il dünyada 42 jurnalist qətlə yetirilib. KİV nümayəndələrinin əksəriyyəti Meksika və Pakistanda öldürülüb.

## BİLDİRİŞ

**"Azərişıq" ASC tərəfindən 16 dekabr 2020-ci il** tarixdə "Azərişıq" ASC 2020-ci ilin 31 dekabr yekunlarına görə Beynəlxalq Maliyyə Hesabatları Standartlarına (BMHS) uyğun maliyyə hesabatlarının audit olması xidmətlərinin satın alınması məqsədilə keçirilmiş açıq tender üzrə təqdim olunmuş iddiaçıların təklifləri Tender komissiyası tərəfindən qiymətləndirilmişdir. Tender komissiyasının qərarına əsasən müvafiq LOT üzrə **"KPMG AUDİT AZƏRBAYCAN" MMC** şirkəti qalib elan olunmuşdur.

Qalib təşkilatla müvafiq satınalma müqavilələri bağlanmışdır.

***Tender komissiyası***

## Daxili İşlər Nazirliyi Tibb İdarəsi 2021-ci ildə tibbi mal və materialların satın alınmasına dair *açıq tender elan edir*

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə elektron formada təqdim etsinlər. Tender təkliflərinin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: aşağı qiymət, yüksək keyfiyyət, müqavilənin vaxtında yerinə yetirilməsi, podratçının aidiyyəti xidmətlər üzrə ixtisas göstəricilərinin uyğunluğu.

Müqavilənin tələb olunan yerinə yetirilmə müddəti **31.12.2021-ci il tarixə kimidir.**

Tenderlə əlaqədar məlumat almaq üçün elektron qaydada əlaqələndirici şəxsə müraciət etmək olar.

Əlaqələndirici şəxs: **İskəndərov Nadir.**

Ünvan: **Bakı şəhəri, Azadlıq prospekti, 161.**

**Tender 1 (bir) LOT üzrə keçiriləcək.**

**LOT 1 - Tibbi mal və materialların satın alınması;**

Maraqlananlar tenderin Əsas şərtlər toplusunu (Əsas şərtlər toplusu Azərbaycan dilində hazırlanmışdır) tenderdə iştirak etmək üçün elektron müraciət etdikdən və aşağıda qeyd olunan hesaba LOT üzrə 200 (iki yüz) manat məbləğində vəsaiti ödədikdən sonra dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə elektron qaydada ala bilərlər. Ödənilmiş iştirak haqqı heç bir halda geri qaytarılmır.

**Hesab: AZ88CTRE00000000000002078508**
**VÖEN: 1700341621**
**VÖEN: 1401555071**
**Bank: Dövlət Xəzinədarlığı Agentliyi**
**Kodu: 210005**
**M/H: AZ41NABZ01360100000000003944**
**S.W.İ.F.T: CTREAZ22**

Malgöndərənlər (podratçılar) iddiaçı statusu almaq və tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təsdiq olunmuş qaydada elektron formada təqdim etməlidirlər:

*1. İştirak haqqının ödənilməsini təsdiq edən bank sənədi;*
*2. Tender təklifi (tender təklifləri zərflərin açıldığı gündən sonra azı 30 (otuz) bank günü qüvvədə olmalıdır);*
*3. Tender təklifinin birinci əlavəsi kimi tender təklifinin ümumi qiymətinin 1 (bir) faizi məbləğində tender təklifinin təminatı - bank zəmanəti (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən azı 30 (otuz) bank günü çox olmalıdır);*
*4. Malgöndərən (podratçı) haqqında tələb olunan sənədlər. Bu sənədlərə aşağıdakılar daxildir:*
*4.1. Malgöndərənin (podratçının) tam adı, hüquqi statusu, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
*4.2. Malgöndərənin (podratçının) son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyət dövründəki) maliyyə vəziyyəti barədə bank sənədi;*
*4.3. Malgöndərənin (podratçının) ixtisas göstəricilərinə dair məlumat (bu məlumatlar tenderin əsas şərtlər toplusunda tələb olunan sənədlərdə və formalarda təqdim olunmalıdır).*
*- Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanlarından arayışlar;*
*- Vergilər Nazirliyi tərəfindən həmin iddiaçıların işçilərinin sayı, əmlakları, avadanlıqları, lazımi texniki imkanlarının olmasına dair rəsmi arayış.*
*4.4. İddiaçıların müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Malgöndərənlər (podratçılar) 1 və 4-cü bəndlərdə qeyd olunan sənədləri 15.02.2021-ci il saat 14:00-a kimi Tender komissiyasına dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə elektron qaydada təqdim etməlidirlər.

Malgöndərənlər (podratçılar) öz tender təkliflərini 05.02.2021-ci il saat 12:00-a qədər elektron Portal vasitəsilə təqdim etməlidirlər.

Göstərilən tarixdən gec təqdim olunan təkliflər dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə qəbul olunmayacaqdır.

Tender təklifləri zərfləri 16.02.2021-ci il saat 12:00-da elektron Portal vasitəsilə açılacaqdır.

***Tender komissiyası***

## Daxili İşlər Nazirliyi Tibb İdarəsi 2021-ci ildə tibbi maşın və avadanlıqların cari təmirinin satın alınmasına dair *açıq tender elan edir*

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə elektron formada təqdim etsinlər. Tender təkliflərinin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: aşağı qiymət, yüksək keyfiyyət, müqavilənin vaxtında yerinə yetirilməsi, podratçının aidiyyəti xidmətlər üzrə ixtisas göstəricilərinin uyğunluğu.

Müqavilənin tələb olunan yerinə yetirilmə müddəti **31.12.2021-ci il tarixə kimidir.**

Tenderlə əlaqədar məlumat almaq üçün elektron qaydada əlaqələndirici şəxsə müraciət etmək olar.

Əlaqələndirici şəxs: **İskəndərov Nadir.**

Ünvan: **Bakı şəhəri, Azadlıq prospekti, 161.**

**Tender 1 (bir) LOT üzrə keçiriləcək.**

**LOT 1 - Tibbi maşın və avadanlıqların cari təmiri.**

Maraqlananlar tenderin Əsas şərtlər toplusunu (Əsas şərtlər toplusu Azərbaycan dilində hazırlanmışdır) tenderdə iştirak etmək üçün elektron müraciət etdikdən və aşağıda qeyd olunan hesaba hər bir LOT üzrə 200 (iki yüz) manat məbləğində vəsaiti ödədikdən sonra dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə elektron qaydada ala bilərlər. Ödənilmiş iştirak haqqı heç bir halda geri qaytarılmır.

**Hesab: AZ88CTRE00000000000002078508**
**VÖEN: 1700341621**
**VÖEN: 1401555071**
**Bank: Dövlət Xəzinədarlığı Agentliyi**
**Kodu: 210005**
**M/H: AZ41NABZ01360100000000003944**
**S.W.İ.F.T: CTREAZ22**

Malgöndərənlər (podratçılar) iddiaçı statusu almaq və tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təsdiq olunmuş qaydada elektron formada təqdim etməlidirlər:

*1. İştirak haqqının ödənilməsini təsdiq edən bank sənədi;*
*2. Tender təklifi (tender təklifləri zərflərin açıldığı gündən sonra azı 30 (otuz) bank günü qüvvədə olmalıdır);*
*3. Tender təklifinin birinci əlavəsi kimi tender təklifinin ümumi qiymətinin 1 (bir) faizi məbləğində tender təklifinin təminatı - bank zəmanəti (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən azı 30 (otuz) bank günü çox olmalıdır);*
*4. Malgöndərən (podratçı) haqqında tələb olunan sənədlər. Bu sənədlərə aşağıdakılar daxildir:*
*4.1. Malgöndərənin (podratçının) tam adı, hüquqi statusu, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
*4.2. Malgöndərənin (podratçının) son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyət dövründəki) maliyyə vəziyyəti barədə bank sənədi;*
*4.3. Malgöndərənin (podratçının) ixtisas göstəricilərinə dair məlumat (bu məlumatlar tenderin Əsas şərtlər toplusunda tələb olunan sənədlərdə və formalarda təqdim olunmalıdır).*
*- Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanlarından arayışlar;*
*- Vergilər Nazirliyi tərəfindən həmin iddiaçıların işçilərinin sayı, əmlakları, avadanlıqları, lazımi texniki imkanlarının olmasına dair rəsmi arayış.*
*4.4. İddiaçıların müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Malgöndərənlər (podratçılar) 1 və 4-cü bəndlərdə qeyd olunan sənədləri 15.02.2021-ci il saat 14:00-a kimi Tender komissiyasına dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə elektron qaydada təqdim etməlidirlər.

Malgöndərənlər (podratçılar) öz tender təkliflərini 05.02.2021-ci il saat 12:00-a qədər elektron Portal vasitəsilə təqdim etməlidirlər.

Göstərilən tarixdən gec təqdim olunan təkliflər dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə qəbul olunmayacaqdır.

Tender təklifləri zərfləri 16.02.2021-ci il saat 12:00-da elektron Portal vasitəsilə açılacaqdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Təhlükəli (zərərli) tullantılar poliqonunun yerli və beynəlxalq standartlara uyğun layihə smeta sənədlərinin hazırlanması işlərinin satın alınması məqsədi ilə "Təmiz Şəhər" ASC tərəfindən keçirilmiş açıq tenderdə "CREAT COMPANY" MMC qalib elan edilmişdir.

Qalib təşkilatla 619.500 manat məbləğində 08 yanvar 2021-ci il tarixli müqavilə imzalanmışdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

"Atəşgah" Sığorta Şirkəti Açıq Səhmdar Cəmiyyətinə məxsus aşağıda qeyd olunan seriyada İcbari əmlak sığortası növü üzrə blanklar itdiyi üçün etibarsız sayılır.

Blank nömrələri: BB335244, BB335245, BB335246, BB335247, BB335248, BB335249, BB335250

## 2 saylı Xüsusi Təyinatlı Mənzil-Kommunal Təsərrüfatı Birliyi mal-materialın satın alınması üzrə *kotirovka sorğusu elan edir*

Potensial imkanı olan iddiaçıların təklifləri 2 nüsxədən ibarət olmaqla 15.01.2021-ci il saat 17:00-dək təqdim olunmalıdır.

Ünvan: F.X.Xoyski küçəsi, 110.

Telefon: 012 564-18-29. Məsul səxs: K.Məmmədova.

***Tender komissiyası***

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

Qəzetin daim yenilənən rəsmi internet ünvanı: www.azerbaijan-news.az


# OXUCULARIN NƏZƏRİNƏ!
# "AZƏRBAYCAN"

***qəzetinə 2021-ci il üçün abunə yazılışı kampaniyası davam edir!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır.**
**Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 440-46-94, (012) 441-19-91* |
| *"Azərpoçt" ASC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Kaspi" MMC* | *(012) 432-39-55, (012) 510-82-24* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

*1 illik*
124,80 (yüz iyirmi dörd manat səksən qəpik) manat

*6 aylıq*
62,40 (altmış iki manat qırx qəpik) manat

*3 aylıq*
31,20 (otuz bir manat iyirmi qəpik) manat

*Hörmətli oxucular!*
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*

**ABUNƏ YAZILMAĞA TƏLƏSİN!**


## Azərbaycan Respublikasının Mərkəzi Bankı üçün "Ev təsərrüfatlarının maliyyə davranışı və niyyətləri" sorğusunun keçirilməsi üzrə xidmətin satın alınması ilə bağlı tender elanı

Azərbaycan Respublikasının Mərkəzi Bankı "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq "Ev təsərrüfatlarının maliyyə davranışı və niyyətləri" sorğusunun keçirilməsi üzrə açıq tender üsulu ilə elektron satınalma keçirir.

Tender proseduru 16 fevral 2021-ci il saat 15:00-da dövlət satınalmalarının vahid internet Portalında (**https://etender.gov.az/**) (bundan sonra - Portal) keçiriləcəkdir.

Tenderdə yalnız mikro, kiçik və orta sahibkarlıq subyektləri iştirak edə bilərlər.

Maraqlı şəxslər tenderdə iştirak etmək üçün Asan Ödəniş Sistemi vasitəsilə Azərbaycan Respublikası Mərkəzi Bankının aşağıdakı hesabına 150 (bir yüz əlli) manat məbləğində iştirak haqqı ödəməklə Portal vasitəsilə Əsas şərtlər toplusunu əldə edə bilərlər:

**Azərbaycan Respublikasının Mərkəzi Bankı**
**Kod: 501004**
**VÖEN: 9900071001**
**Hesab: AZ25NABZ01701190000000001944**
**Müxbir hesab: AZ74NABZ01451700000000001944**
**S.W.I.F.T. BİK: NABZAZ2C**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Tenderdə iştirak etmək üçün iddiaçılar Portal vasitəsilə aşağıdakı sənədləri təqdim etməlidirlər:

*- iddiaçının tam adı, nizamnaməsi, dövlət qeydiyyatı haqqında şəhadətnamə və ya hüquqi şəxslərin dövlət reyestrindən çıxarış, bank rekvizitləri;*
*- tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd;*
*- Azərbaycan dilində tender təklifi (tender təklifi 07 aprel 2021-ci il tarixədək qüvvədə olmalıdır);*
*- tender təklifinin qiymətinin 1 (bir) faizi məbləğində bank təminatı (tenderin Əsas şərtlər toplusuna əlavə edilən bank qarantiyası formasında);*
*- iddiaçının son 1 (bir) ildəki maliyyə vəziyyəti barədə bank arayışı;*
*- Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin, habelə son 1 (bir) il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrin yerinə yetirilməməsi hallarının mövcud olmaması haqqında müvafiq dövlət orqanından arayış;*
*- iddiaçının müvafiq fəaliyyət sahəsində ən azı 2 (iki) il təcrübəsinin olması, istifadə olunacaq proqram təminatı və onun işləmə prinsipi haqqında məlumat;*
*- iddiaçı ilə əlaqəli şəxs olmayan və ya onun üzərində əhəmiyyətli nəzarəti həyata keçirməyən ən azı 2 (iki) korporativ müştəri tərəfindən verilən tövsiyə məktubu;*
*- ev təsərrüfatlarının sayı və bu say üzrə regional seçmə planı (tenderin Əsas şərtlər toplusuna əlavə edilən plana uyğun);*
*- tenderin Əsas şərtlər toplusunda iddiaçının ixtisas uyğunluğuna dair tələb olunan digər sənədlər.*

İddiaçılar tender təklifini və tender təklifinin bank təminatını 15 fevral 2021-ci il saat 18:00-a qədər, digər tələb olunan sənədləri isə ən geci 05 fevral 2021-ci il saat 15:00-a qədər Portal vasitəsilə təqdim edə bilərlər.

Xidmətin göstərilməsi müddəti: müqavilə imzalandıqdan sonra 2021-ci il ərzində 4 dəfə (mart, iyun, sentyabr, dekabr aylarında) olmaqla.

Qiymətləndirmə meyarları: maliyyə amili və iş təcrübəsi (oxşar işlər üzrə korporativ müştərilərə xidmət).

İddiaçılar tərəfindən tenderlə bağlı bütün sorğular və onlara dair izahatlar yalnız Portal vasitəsilə verilir.

Tender prosedurunun hər bir iştirakçısı onun təklifinin açılmasını və qiymətləndirilməsini Portal vasitəsilə müşahidə edə bilər.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyi tərəfindən 27 noyabr 2020-ci il tarixdə www.etender.gov.az Portalında, 28 noyabr 2020-ci il tarixdə "Azərbaycan" qəzetində dərc edilmiş Startap layihələrinin dəstəklənməsi məqsədilə lazımi aktivlərin satın alınmasına dair keçirilmiş açıq tenderdə Tender komissiyasının qərarı ilə "B2B Group" MMC müsabiqənin qalibi elan olunmuşdur.

Qalib təşkilatla müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Ərazilərinin Bərpası və Yenidən Qurulması üzrə Agentliyin rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının Xarici iqtisadi əlaqələr şöbəsi müdirinin müavini

**RAFİK ƏHMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Mirzai Cəbrayıl, Arzu Hüseynov, Nizami Məcidov, Rabil Əliyev, Rasim Poladov, İmran Rzayev, Qafar Hüseynov, Ləbib Ləbibov və Niyazi Məmmədov Telman Həsənova əzizi

**XANIM ABDULSALAM QIZI BÜNYATZADƏNİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Ünvan**



*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə*
*e-mail:*
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

**Telefonlar**

| | |
|---|---|
| Qəbul otağı | - 539-68-71, |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39, |
| Məsul katib | - 539-43-23, |
| Məsul katib müavinləri | - 539-44-91, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, |
| Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 432-37-68, |
| Humanitar siyasət şöbəsi | - 538-56-60, 539-63-82 |
| İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Kompüter mərkəzi | - 538-20-87, |
| Mühasibatlıq | - 539-59-33 |

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

*Gündəlik qəzet*

Tiraj 5097
Sifariş 88
Qiyməti 40 qəpik